HACI QADIR QƏDIRZADƏ

# ƏSHABİ KƏHF: MÜQƏDDƏSLİK, TARİXİLİK VƏ İNANCLARIN GENEZİSİ

BAKI "ELM" 2002

*Rəyçi:* **Hacı Fəxrəddin Səfərli**

*Redaktoru:* **Vəli Baxşəliyev**

HACI QADİR QƏDİRZADƏ. ƏSHABİ KƏHF: MÜQƏDDƏSLİK, TARİXİLİK VƏ İNANCLARIN GENEZİSİ. Bakı, «Elm», 2002 , 112 səh.

**Monoqrafiyada Naxçıvandakı «Əshabi Kəhf»in tarixiliyi, müqəddəsliyi, Qurani Kərimdə bəhs edilən «Əshabi Kəhf»in Naxçıvanla bağlılığı məsələləri, həmçinin «Əshabi Kəhf»dəki inancların genezisi və digər türk xalqları ilə paralelləri araşdırılmışdır.**

$Q\frac{470260101}{655(07)-2002}$

© Hacı Qadir Qədirzadə, 2002

## Kitabın içindəkilər

1. Ön söz....................................................................4
2. I Bölüm. Müqəddəslik, tarixilik...........................7
3. II Bölüm. Ziyarətə hazırlıq,ziyarətin keçirilməsi.31
4. III Bölüm. İnanclar sistemi..................................42
    1. Dağ-daş mağara kultu.................................42
    2. Su kultu.........................................................57
    3. Ağac kultu.....................................................69
5. Nəticə....................................................................79
6. Şəkillər..................................................................81
7. Ədəbiyyat..............................................................101

# Ön söz

«Əshabi-kəhf»lə bağlı uzun illərdən bəri müxtəlif istiqamətli kitablar, məqalələr yazılmış, filmlər çəkilmişdir. Qeyd edək ki, dünya çapında daha çox Türkiyədəki yeddi yatmış və onlarla bağlı rəvayətlərdən bəhs edilmişdir. Azsaylı müəlliflər istisna olmaqla, Naxçıvandakı «Əshabi-kəhf »və onunla bağlı hadisələr lazımınca araşdırılmışdır. Çap olunan materiallar isə daha çox rəvayəti, dini və mifik mətnləri əhatə edir.

Sovet hakimiyyəti illərində bütün inam yerləri kimi, «Əshabi-kəhf»ə də hücümlar edilir, ziyarət yasaq sayılır, zəvvarlar daha çox gizli şəkildə ziyarətə gedirdilər. Belə bir vaxtda müxtəlif tipli yazılar çap etdirilib «Qurani-Kərim»də adı keçən bu abidəyə, müqəddəs yerə qaralar yaxılırdı. Haşa-haşa, hətta «Asobi keyf» deyə məqalələr nəşr olunurdu. Belə məqalələrin adlarını və müəlliflərini göstərə bilərik. Lakin Allah bilən yaxşıdır. Məhz belə bir vaxtda, hələ Sovet dövlətinin qüdrətli çağında, 1982-ci ildə biz "«Əshabi-Kəhf» mağarasına inam, onun tarixi kökləri" adlı məqaləni Azərbaycan türkcəsidə və rusca çap etdirdik. Məhz bu yazıda mağaranın və rəvayətin islamdan çox əvvəl aid olmaqla, qədim türklərlə bağlılığını göstərmişik.

Sadəcə onda türk sözünə yasaq qoyulduğu üçün «türk dilli xalq» ifadəsi işlənmişdi.

Sonrakı illərdə də btr neçə dəfə bu məsələyə müraciət etməklə,elmi fikirlər daha da dərinləşdirilmişdir. Nəhayət,

Türkiyədə dünyanın bir çox tanınmış adamlarının iştirak etdiyi mötəbər elmi məclisdə,"Naxçıvanda müqəddəslər ərən və evliyarlarla ilgili kutsal yerlər " mövzusunda məruzə ilə çıxış etdim. Çıxışda əsas diqqət "Əshabi- Kəhf "lə bağlı tarixilik və əski inanclara yönəldilmişdir. 25 makinə səhifəsi həcmində olan məruzə çapa məsləhət görüldü və nəşr olundu. Eyni zamanda, dəyərli material kimi mükafatlandırıldı.

Sonrakı dövrlərdə də bu sahədə tədqiqatlar davam etdirilmişdir.

"Əshabi-Kəhf" lə bağlı bizim iştirakımız ilə film çəkilmişdir. Hətta toplulara köməklik edilsə də,bundan istifadə edənlər sadəcə susmuş, bəlkə də müəlliflik haqqımı danmışlar. Bəli, bu gün «Əshabi-Kəhf»ə baxış dəyişib, çox müəlliflər yazdıqlarından imtina edib biz isə sadəcə tədqiqat dairəsini genişləndirməyə çalışırıq.

Kitabda «Əshabi-Kəhf»lə bağlı məsələlər, dünya çapında ona baxış, müqəddəslik, tarixilik, inamlar sistemini genezisi araşdırılmışdır.Başlıca diqqət mağaranın tarixinə, «Qurani – Kərim»də adı çəkilən «Əshabi- Kəhf» in Naxçıvana aid olmasına yönəldilmişdir.

İnanıram ki, «Əshabi-Kəhf»lə bağlı qədim türk düşüm tərzinə dönə-dönə qayıdılacaq. Qulu Rəbbinə yaxınlaşdıran,çoxları üçün tövbə qapısı sayılan bu Ali Məqama zəvvarlarla bərabər,hələ çox araşdırıcılar gələcəkdir.

«Əshabü Kəhf»i tədqiq məqsədi ilə gələnlər zahiri

təmizənmə(qüsul vermə)ilə bərabər,mənəvi təmizliyi qoruyun! Unutmayın! Allah hər şeyi olduğu kimi biləndir.

"De ki, nə qədər qaldıqlarını Allah daha yaxşı bilir.Göylərin və yerin gizli bilgisi ona aiddir.( Kəhf 26). Qeyd edək ki, biz araşdırmalarımızda əsasan 6 nəfərlik heyətin hazırladıqlar "Qurani-Kərim" və türkcə açıqlamalı mealı.Medine-i Münevvere,1992 kitabından istifadə edirik.

Kitabın şəkillərinin hazırlanmasında hərtərəfli köməklik göstərdiyi üçün yaxın dostum Nazim Bababəyliyə, əməyi olan digər insanlara minnətdarlığımı bildirirəm.

# I BÖLÜM.

## MYQƏDDƏSLİK, TARİXİLİK

Naxçıvanda ən müqəddəs yerlərdən sayılan " Əshabi-Kəhf"ə (xalq arasında "Asafkəf») inam olduqca güclüdür. Hər il bura on minlərlə insan ziyarətə gəlir. Naxçıvanda buranı ziyarət etməyən insanlara çox az halda rast gəlmək olar. «Əshabi-Kəhf» tarixilik, dini inancların zənginliyi baxımından diqqəti cəlb edir. Buna görədir ki, biz bu məsələyə bir neçə dəfə müraciət etmişik.[1]

Öncə magara haqqında mə'lumat verərəkən onun Naxçıvan şəhərinin şərq tərəfində, keçmiş Haçaparaq kəndi yaxınlıgında yerləşdiyini göstərmək yerinə düşərdi. Girişi güneydən başlanan magara qüzey istiqamətdə, dagın içərisinə dogru uzanıb gedir. Magaranın müqəddəsliyi xalq arasında yayılmış və bir sıra qaynaqlarda əksini tapmış rəvayətlə baglıdır: «Allahdan üz çevirib bütlərə tapınan Dag Yünis adlı hökmdarın zülmü ərşə dayanmışdı. İnsanlar arasında küfr hökm sürürdü. Buna dözə bilməyən vəzir Təmirxan ( ad Təmreyxa, Təmilxan kimi də deyilir ) tək Tanrıçılıq inancında olan bir neçə dostu ilə zülmdən qurtarmaq üçün daglara sıgınmaq və başlarına çarə qılmaq istəyi ilə şəhərdən qaçırlar. Yolda hökmdarın çobanına rast gəlirlər.

Vəziyyəti öyrənən çoban da zülmdən cana gəldiyini və ümidini bir olan Allaha baglandıgını bildirərək onlara qoşuldu.

Bu vaxt çobanın iti də onların ardınca gəlir. İtin səs salıb onların yerini bildirəcəyindən qorxuya düşürlər. Çoban iti heç bir vəsitə ilə qova bilmir, vurub ayağının birini qırır. Bir azdan baxırlar ki, it yenə gəlir. Çoban onun ikinci ayağını sındırdıqda it insan kimi dil açıb zülmdən qaçdığını bildirir və ölür. Çoban onu mağaranın girəcəyindən bir az aralı, hazırda «Qitmir» adlanan yerdə basdırır və çomağını taxır üstünə. Bundan sonra qaçıb, yaxınlıqdakı mağaraya sığınırlar. Onları dərin yuxu tutur.

Beləcə üç yüz ildən çox yatırlar. Oyandıqdan sonra acdıqlarını hiss edərək vəziyyəti öyrənmək və çörək almaq məqsədilə vəziri şəhərə göndərirlər. O, pul verib çörək almaq istəyərkən yaxalanır. Ondan soruşurlar ki, bu pullar hardandır? Xəzinə tapmısan? O, isə inandırmağa çalışır ki, pullar kimsəyə aid deyil, dünən şəhərdən çıxarkən götürmüşdür. Onu başa salırlar ki, pullar üç yüz il bundan əvvəl hökmdarlıq etmiş Dağ Yunisə aiddir.

Burada bir möcüzə olduğunu bilən vəzir başına gələnləri danışdıqdan sonra maraqlanan insanlar mağaraya doğru axışırlar. Vəzir yoldaşlarının bundan qorxuya düşə biləcəklərini söyləyərək onları xəbərdar etmək üçün qaçaraq mağaraya gəlir. Baş vermiş möcüzəni bildirir. Hər biri əl qaldırıb Allahdan qeyb olmalarını diləyirlər. Şanı uca Allah onların səsini eşidir, hər biri

qayaya söykəndikləri kimi də yox olur. Mağaraya daxil olanlar qayada onların izlərini tapırlar və o zamandan mağaranı ziyarətkaha çevirirlər.»

Xalq arasında yayılan bu rəvayət müəyyən dəyişikliklərlə qaynaqlarda da öz əksini tapmışdır. Sonralar bu rəvayətə əlavə olunmuş bir rəvayət mağaranın müqəddəsliyini daha da artırır. Həmin rəvayətə görə, Əhli-Beytin atası həzrəti Əli oranı ziyarət etmiş, namaz qılmış və Düldülün ayaq izi qayada qalmışdır.

Biz uzun illərdən bəri bir neçə dəfə burada olmuş, müqəddəs yerlə bağlı geniş materiallar toplamaqla onun tarixiliyi, əməl edilən inancların genezisi ilə bağlı araşdırmalar aparmışıq. Qeyd etmək yerinə düşərdi ki, biz ilk və əsas kömək olaraq «Qurani-Kərim» in bu məsələ ilə birbaşa bağlı olan on səkkizinci surəsi-«kəhf» surəsini götürmüşük. Burada zülümdən qaçma, Allahın onları hidayət və xilas etməsi verilmişdir. Ayədə mağaranın quruluşu ilə bağlı xəbər diqqəti xüsusi olaraq cəlb edir. Çünki dünyanın bir sıra bölgələrində «Əshabi-Kəhf» adı ilə tanınan mağaralar vardır ki, adı «Qurani-Kərim»də keçən mağara olduğu iddia edilməkdədir.Bu məsələ «Qurani-Kərim»in 18-ci surə, 17-ci ayəsidə belə açıqlanır: «Baxsaydın, günəşin mağaranın sağ tərəfindən doğub meyl etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin...»

Qeyd edək ki,məna eyni olsa da, ayrı-ayrı kitablarda tərcümədə cuzi söz dəyişikliyi vardır.

Ayədə diqqəti çəkən «Baxsaydın, görərdin...» deyilərkən Rəsulullahın baxması nəzərdə tutulur. Məlumdur ki, mağaranın içərisinə girəcəkdən baxarkən, yəni girişdən sağ və sol nəzərdə tutulur. Məhz Naxçıvandakı «Əıhabi-Kəhf»də içəri girən (baxan) adamın sağı ( bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür. Yəni mağara cənub-şimal istiqamətindədir.

Mağaranın nə vaxt yaranması ilə bağlı rəvayətlərdə onun qaçanların sığındıqlın zaman yarandığı söylənilir: «Allahın hökmü ilə dağ yarıldı və onlar orada gizləndilər».

«Qurani-Kərim»də isə: «(İçlərindən biri belə demişdir:) Madam ki, siz onlardan və onların Allahdan kənarda tapmaqda olduqları varlıqlardan uzaqlaşdınız, o halda mağaraya sığının ki, Rəbbiniz sizə rəhmətini yaysın və işinizdə sizin üçün fayda və yaxşılıq saxlasın».[2]

Buradan aydın olur ki, rəvayətdə deyilənin əksinə olaraq mağara oncədən mövcudumuş, qaçanlar onun haqqında məlumatlı imişlər.

Bir məsələ diqqəti xüsusi ilə cəlb edir: mağaraya sığınanlar neçə nəfər olmuşlar? Bununla bağlı rəvayətlərdə müxtəlif fikirlər vardır. Qaynaqlarda onların sayı 5,6,7 bəzən 8 olaraq göstərilir. Naxçıvanda isə qeyb olanların 7 nəfər olduqları söylənməkdədir. «Əshabi-Kəhf»dəki «Yeddi kimsənə»deyilən

ziyarət yerinin olması, «Yeddi kimsənəyə and olsun» ifadəsi sayın kəsinliklə yeddi olduğunu bildirir. Əlbətdə, bu rəvayətdir. Həqiqət isə «Qurani-Kərim» dəki kimidir: ( insanların kimi:) «Onlar üç nəfərdir, dördüncüləri də itləridir"; Yenə: "Beş nəfərdir, altıncıları itləridir" –deyəcəklər.

/Bunlar/ bilinməyən haqqında təxminən deməkdir. (Kimləri də:) «Onlar yeddi nəfərdir, səkkizinci itləridir» deyirlər. De ki, onların saylarını Rəbbim daha yaxşı bilir. Onlar haqqında biliyi, məlumatı olan çox azdır...»[3] Deməli, onların sayı ilə bağlı mübahisə açmaq bizim məqsədimiz ola bilməz.

İtlə əlaqəli fikirlər də müxtəlifdir. Bəzi qaynaqlarda onun qovulduğu, bəzilərində isə çoban tərəfindən öldürüldüyü və basdırıldığı söylənmədədir /Naxçıvanda da belədir/.

«Qurani-Kərim»də isə: «Özləri yuxuda olduqları halda sən onları oyaq sanırdın. Onları sağa, sola çevirirdik. İtləri də mağaranın girişində qabaq ayaqlarını uzatmış, yatmaqda idi... »[4]

Beləliklə, itin onlar mağarada olarkən sağ olduğu aydınlaşır. Maraqlı burasıdır ki, it müqəddəslərin yatdıqları mağaraya daxil olmamışdır.

«Qurani-Kərim»də xəbər verilən mağaranın Naxçıvanda olmasını sübut edəcək bir fikir də diqqəti cəlb edir: «Beləcə (insanları) onlardan xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunu, qiyamətin şübhə götürməz olduğunu bilsinlər. Bu sırada onlar aralarında «Əshabi-Kəhf»in vəziyyətini araşdırırdılar. Dedilər

ki: «Üzərlərinə bir bina tikin. Rəbləri onları daha yaxşı bilir.» Onların vəziyyətinə vaqif olanlar isə: «Bizlər, kəsinliklə onların yan başlarında bir məscid tikəcəyik» dedilər».[5]

Uzun illərdən bəri bizi ayədəki məscid məsələsi düşündürürdü. Naxçıvan «Əshabi-Kəhf»indəki indiki məscid də qeyb olanların yanbaşı istiqamətindədir. Kitabənin qoyulma tarixinə əsaslanaraq buranın ən azı XY yüzillikdən məscid kimi istifadə edildiyini söyləmək olar. Lakin bura ilin yağmurlu vaxtlarında ibadət üçün əlverişsizdir. Digər tərəfdən indiki məscidin yerində heç bir tikil, hörgü olmamış, sadəcə dağ daşlarından hündür olmayan, məhlulsuz divar düzəldilmişdir. Son bərpa işləri zamanı həmin daşlar kərpic divarla əvəz edilmişdir. Deməli, burada ayədəki məsciddən söhbət gedə bilməz. Bizim üçün muəmmalı olan bu məsələ adi bir təsadüf nəticəsində elmi həllını tapdı. 2002-ci ilin may ayında tanınmış türk geoloqu prof. Dok. Salih Bayraktutan . burada olub geoloji məsələlərlə maraqlanarkən qədim tikil (divar) qalıqlarını Nazim Bababəyliyə və onlarla birlikdə olan Əli Qurbanova göstərmişdir. Sonra Nazim müəllim məsələni mənə bildirdi. Birlikdə ilkin araşdırma apararkən əsl möcüzəyə rast gəldik. Qeyb olanların yanbaşında, mağaranın içərisində, «Yeddi kimsənə» adlanan məqamdan 55-60 metr aralı, eyni istiqamətdə 15 metr uzunluğunda, çox qədim tarixə malik olan divar qalıqları aydın şəkildə görünməkdədir. Bəzi yerlərdə 40 sm hündürlüyündə qalan divar əhəng məhlulu ilə

hörülmüşdür. Tikinti üçün seçilmiş yer təbii tavana malik olmaqla, ancaq divar çəkilən tərəfi açıqdır ki, bunu da divarla əhatə edib bina tikmişlər. Divar ikiqat olmaqla aşağıdan yuxarıya qalxdıqca səthi düzəltmək üçün kiçik daşlardan, yuxarı hissədə iri yastı daşlardan hörülmüşdür. İçərinin düz və ibadət üçün əlverişli olması məqsədilə ora qum qarışıq torpaq töküldüyünü söyləmək olar. Uzun illər burada od və ya şam yandırılması nəticəsində tavan və təbii divarlar tamam qaralmışdır. Tikilinin ətrafında çoxlu xırdabuynuzlu heyvan sümüklərinin, kül qatının olması burada xüsusi mərasimlərin keçirildiyini söyləməyə imkan verir. Divarın uçub tökülməsi nəticəsində ətrafda hündür mədəni təbəqə əmələ gəlmişdir.

Salih Bayraqtutanla bir daha görüşüb məsələ ilə bağlı müzakirə apararkən o məhlula əsasən tikilin ən azı 2000 il bundan əvvələ aid olduğunu söyləməklə bildirdi ki, məhlul qalıqlarını laborator analiz etməklə tarixin daha qədim olduğunu sübuta çatdırmaq olar. Tanınmış memar prof. Dok. V. Kərimov Naxçıvanda əhənglə işləmənin 3000 ildən artıq tarixə malik olduğunu söyləyir. Məsələ ilə bağlı "Şərq Qapısı" qəzetinin 18 iyul 2002-ci il sayında ayrıca məqalə nəşr etdirmişik.

Biz "Qurani-Kərim"dəki məlumatlara, müxtəlif qaynaqlara, rəvayətlərə əsaslanaraq "Əshabi-Kəhf"lə bağlı bəzi məsələlərə açıqlama vermək istərdik. İlk əvvəl mağaranın tarixiliyi diqqəti cəlb edir. "Qurani-Kərim"dən onun əvvəlcədən mövcud olduğu

görünməkdədir. "... O halda mağaraya sığının ki..." ifadəsi xalqın buranı əvvəlcədən bildiyini söyləməyə imkan verir. Onların buraya sığınması bir tərəfdən gizlənmə ilə əlaqəlidirsə, digər tərəfdən onun müqəddəsliyi, kutsallığı ilə bağlıdır. Çünki, Rəblərinin rəhmini burada qazana bilərdilər. Mağaranın quruluşu, təbii-coğrafi şəraiti ilə tanışlıq buranın ilkin yaşayış məskənlərindən biri olmasını söyləməyə imkan verir. Mağarada qışın soyuğyndan, yayın istisindən qorunmaq üçün hər cür şərait vardır. Son illərə qədər mağaranın girəcəyindən çıxan bulaq içməli suyu tam təmin edə bilərdi.

İndi bulaq baxımsızlıqdan qurumuşdur. Mağaradakı təbii sığınaqlar ayrı-ayrı otaqları xatırladır. Uzun illər yandırılmış tonqalların təsirindən divarlar xeyli qaralmışdır. Buranın təbii girişi çox çətin keçilə bilən, sürüşkən qayadan ibarət idi ki, bu da mağaradakılan düşmənlərin və vəhşilərin hücumundan qoruyurdu. Bütövlükdə qayalıqlar və daşlardan ibarət olmasına baxmayaraq, çoxlu ağac və kollar vardır.

Qeyd edək ki, yaşıllıq ancaq buradadır. Əsl möcüzədir. Ətraf istidən od tutub yanır, insanın nəfəsi kəsilir. Burada isə sərin bulaq, yaşıllıq. Bu, Allahın möcüzəsidir. Allahın hökmü ilə insanların ilk sığınaq yeri olmuşdur. Sonralar insanlar buranı tərk etsələr də, zaman-zaman buraya gəlmiş, müəyyən mərasimlər keçirmiş, nəhayət, "Əshabi-Kəhf" hadisəsilə ziyarətgaha çevirilmişdir.

Deməli,bura hər şeydən əvvəl insanlığın ata ocağı idi. Onda nə xristianlıq var idi, nə də islam. Burada xalq adətləri və inancları hakim idi. Bu günümüzdə də belədir.

"Əshabi-Kəhf"in tarixiliyinin öyrənilməsinə gəlincə qeyd etməliyk ki, rəvayətlə bağlı islam mənbələrində, həmçinin Avropa tarixşünaslığında geniş məlumatlar vardır. Rəvayətin baş verdiyi yerin İspaniya, Əlcəzair, Misir, Suriya, Əfqanıstan, Anadolu və Doğu Türküstan olduğu göstərilir.[6] Müəlliflərin əksəriyyəti hadisənin xristianlıqla bağlı olub, İsa Peyğəmbərdən sonra baş verdiyini və sonra "Qurani-Kərim"ə daxil edildiyini söyləyirlər.

Öncə "Kəhf" surəsinin enməsi ilə bağlı məsələyə diqqət yetirək: Qureyişlər Nadir ibn Haris və Utbə ibn Müaytı Mədinədəki yəhudi alimlərinin yanına göndərirlər ki, onlardan Məhəmməddən və onun sifətindən soruşun və kəlamını söyləyin. Çünki onlar qədim kitab əhlidirlər. Onlarda bizdə olmayan peyğəmbər bilgiləri vardır. Bundan sonra onların ikisi də Mədinəyə gəldilər. Yəhudi alimləri onlara dedilər ki, ondan üç şey soruşun:

1.O fityələr (gənc igidlər) kimlərdir? Xüsusiyyətləri nədir? Bunların hekayəsi olduqca maraqlıdır.

2.O rəcüli tavvaf (yəni o səfəredən adam) yer üzünün şərq və qərbinə çatan kimdir? Hekayəti nədir?

3.Ruh nədir?

Bu üç məsələni soruşun. Əgər sizə onları xəbər versə nəbidir, ona inanın.[7]

Məhz bu fikirə söykənərək demək olar ki, hadisə xristianlıqdan əvvəl baş vermişdir. Yəhudilərin kitablarında bu haqda məlumat vardır. Çünki birinci məsələ məhz "Əshabi-Kəhf" haqqındadır. İkinci məsələ isə Zülqəriney. Elmallı M. Hamdi Yazır hadisənin qədimdə olduğunu göstərir: "Əbu Əli ibn Sina yazır ki, Aristotel Allaha tapınan bir toplumun başına gələn hadisədən bəhs edir ki, bu, "Əshabi-Kəhf"dəkilərə bənzəyir. Deməli, "Əshabi-Kəhf"hadisəsi daha qədimdə olmuşdur».[8]

Rəvayətlərdə hökmdarın və zülmdən qaçanların adı verilsə də , "Qurani-Kərim"də bundan bəhs olunmur. Eyni zamanda hadisənin harada olması da göstərilmir. Bu da Allahın insanlardan gizli saxladığı məsələdir ki, bunun təsirindən dünyanın ayrı-ayrı yerlərində rəvayətlər yaranmışdır.

Ümumiyyətlə, bəzi araşdırıcılar mağaranı İspaniyada, bəziləri Kiçik Asiyada, bəziləri Misir və s. yerlərdə axtarırlar.

Fahreddin Razi belə deyir: "Doğrusu, " Əshabi- kəhf" in nə zamanını, nə yerini ağıla gətirə bilməyə imkan yoxdur. Bu ancaq bir nasdan öyrənilə bilərdi. Belə bir nas olmadığına görə bilinməsinə də imkan yoxdur".[9]

Fransızların "Qrand" Ensiklopediyasında "Sert Dormans"- "yeddi yatmışlar" adı ilə bu hadisənin tarixiliyi, baş verdiyi ərazi tam xristianlıqla bağlanır. Hətta bununla bağlı dəqiq tarixlər göstərməyə çalışılır.[10]

Mağaranın yeri haqqındakı anlaşılmazlıqları nəql edən Əbu Hayyan belə deyir: "Bu mağara Rumda deyildi, Şamda deyildi, İspaniyada, Qranta tərəfində Lose ismində yerdə bir mağara vardır ki, içində ölülər və bərabərlərində çürümüş bir köpək vardır. Ölülərin çoxunun ətləri tökülmüş, bəzisinin əti vücuduna sımsıx yapışmışdır. Çox əsrlər keçmiş, biz bunların nə olduğunu bilmirik. İnsanlar isə bunların " Əshabi- Kəhf" olduğunu sanırlar".[11]

Mağarada ölülərin uzun müddət çürümədən qalması fikrinə Əbdürrəşid Əl- Bakuvidə də rast gəlirik. Müəllif Əfəsus şəhərindən bəhs edərkən "Əshabi-Kəhf"lə bağlı rəvayəti, mağaranın istiqamətini göstərməklə "...onun içində ölənlərin meyitləri çürümür. Onlar yeddi nəfərdir. Altısı arxası üstə yatır. Yeddincisi mağaranın uzaq küncündə arxası mağaranın divarına sağ böyrü üstə söykənib yatır. Onların ayaqlarının altında heç bir yeri zədələnməmiş olan it yatır".[12]

Bu rəvayətin heç biri həqiqətə uyğun deyil. Sadəcə olaraq uzun illər mövcud olmuş tendensiyanın davamıdır. Çünki "Qurani-Kərim"də say bəlli deyil. Eyni zamanda, onunla bağlı mübahisə ediləcəyi bildirilir."...De ki, onların sayını Rəbbim daha yaxşı bilir".[13]"Qurani-Kərim"də zülmdən qaçanların çürümədən qaldıqları deyil, qeyb olduqları bildirilir.

Əgər meyitlər çürüməmiş olsaydı, hər şey aydın olardı. Naxçıvanda isə qeybə çəkilmə inamı mövçuddur.

Əldə olunmuş çox saylı mənbələrdə demək olar ki, başlıca diqqət Türkiyə ərazisindəki, həmçinin digər ölkələrdəki "Əshabi-Kəhf"lərə yönəldilir. Naxçıvandakı "Əshabi-Kəhf'dən bəhs olunmur. Hətta tanınmış türk alimi Fərrux Sumər bu məsələyə həsr etdiyi kitabda da Naxçıvan "Əshabi-Kəhf'indən bəhs etmir.[14]

Son illərdəki epiqrafik və bəzi dini araşdırmalar istisna olmaqla,[15] Naxçıvan "Əshabi-Kəhf'i ilə bağlı tədqiqatlar aparılmamışdır.

"Qurani-Kərim"in təvsirlərində də əsasən Anadoludakı "Əsahabi-Kəhf'dən bəhs olunur. 1992-ci ildə fars dilindən Azərbaycan türkcəsinə tərcümə edilmiş Sədrəddin Bəlağinin "Quran qissələri" kitabının "Əshabi-Kəhf' bölməsindəki fikirlər yunan-roma mənşəli olmaqla, özündən əvvəlkiləri təkrar edir.[16] Kitabın 191-ci səhifəsindəki izah üçün qoyulmuş işarədəki "Qurani-Kərim, Kəhf surəsi, 10-cu ayə və sonrakı ayələr" ifadəsi yazılmışdır. Bu yanlışdır,çünki 9-cu ayədə deyilir: "Yoxsa Kəhf və Rakim Əsabını bizim çaşılacaq ayələrimizdən bir şey mi sandın?".[17] Eyni zamanda, 10-cu ayə və sonrakı ayələrdə ifadəsindən belə çıxır ki, 110-cu ayəyə qədər. Lakin bu məsələdən 9-26-cı ayələrdə bəhs olunur. Müəllif Efesus şəhərindən bəhs edərkən onun coğrafi mövqeyini, həmçinin "Əshabi-Kəhf'lə bağlı rəvayətin məhz bu şəhərdə, təqribən 249-251-ci illərdə baş verdiyini göstərir.[18]

Yuxarıdakı mənbələrdən məlum olur ki, "Əshabi-Kəhf"lə əlaqəli rəvayətin birbaşa xristianlıqla əlaqələndirilməsi, xüsusən hind-ari (Roma-yunan, İspaniya) mənşəli hesab edilməsi məsələyə birtərəfli yanaşmadır.

Bununla bağlı "Qurani-Kərim" "Kəhf" surəsinin 9-cu ayəsinin açıqlanmasına diqqət yetirdikdə məlum olur ki, tərcümə müxtəlif mənbələrdə fərqli verilmişdir.

"Yoxsa Kəhf və Rakim əhlinin bizim şaşılacaq ayələrimizdən bir şey mi sandın?"[19]

"Ey Mühammed, yoxsa sən Kəhf və Rakim sahiblərini şaşılacaq ayələrimizdənmi sandın?"[20]

"Yoxsa sən, ey Mühammed,...Mağara və kitabə əhlini şaşılacaq ayələrimizdənmi zənn etdin?"[21]

"(Rəsulum)... Yoxsa sən bizim ayələrimizdən /sadəcə/Kəhf və Rakim sahiblərinin ibrətə şayan olduqlarınımı sandın?"[22]

"Kəhf və Rakim əsabının əhvalını dəlillərimiz içərisində şaşılacaq bir dəlilmi sandın?"[23]

"Yoxsa Kəhf və Rakim əhlinin taleyi sənə qəribə gəldi, elə bildin ayələrimizdən qəribəsi təkcə bu imiş?"[24]

Bu ayədəki Kəhf sahibləri ("Əshabi-kəhf") artıq rəvayətlərdən məlumdur. "Qurani-Kərim"in sonrakı ayələrində /10-26/ onlarla bağlı geniş material vardır. Bəs,Rakim sahibləri kimdir və ya Rakim ifadəsi ilə nə nəzərdə tutulur? Ayrı-ayrı müəlliflər

buna müxtəlif cəhətdən yanaşmışlar.

Əbdülbaki Gölpınarlı yazır: "Rakiyimin sonradan mağaranın qarşısına (içərisinə H.Q.) qoyulan və üzərində "Əshabi-Kəhf"in başına gələn hadisələrin həkk edildiyi /qazıldığı/ daş lövhə olduğu Cübeyr oğlu Saiddən rəvayət edilmişdir. "Əshabi-Kəhf" haqqında yazılmış bir kitabdır-deyənlərdə mövcuddur. Rakimin lüğəti mənası yazılmış şeydir."[25]

Elmallı M.Həmdi Yazır məsələ ilə bağlı qeyd edir: "Kəhf dağlarda bilavasitə geniş olan mağaralara verilən addır. Kiçiyinə "ğar" deyilir. Türkcəsi "in"dir.

Rakim bizim kitabə dediyimiz yazılı daş, metal və s. düzəldilmiş lövhə deməkdir".[26]

Təfsirlərə görə, kəhf dağda olan geniş mağara deməkdir. "Rakim"in nə olduğu ilə bağlı bir nəticə əldə olunmamışdır. Ancaq bu mənalardan biri olacağı ehtimal edilir: Mağaranın olduğu dağ, ya vadi "Əshabi-Kəhf"in adlarının yazıldığı kitabə.[27]

Avropa mənbələrində Rakim "Əshabi-Kəhf"in başına gələnlərin yazılıb mağarada qoyulduğu mis lövhədir.[28]

Yazılı mənbələrdən belə nəticəyə gəlmək olar:

1.Mağaranın sahəsi geniş olmuşdur.

2.Burada yazılı kitabə qoyulmuşdur.

Naxçıvandakı "Əshabi-Kəhf"mağarası geniş olmaqla burada bir neçə kitabə vardır. Kitabənin tədqiqatçısı Hacı Fəxrəddinin

araşdırmalarından məlum olur ki, üzərində "Qurani-Kərim"in "Əl-Kəhf' surəsinin 9,10,11,12,17 və 18-ci ayələri həkk edilmiş mərmər lövhə /kitabə/ təbii aşınma nəticəsində məhv olmaq təhlükəsində olduğu üçün Naxçıvan ölkəsinin hakimi Şükürulla xanın qərarına əsasən onun üzü təzədən,səhvsiz, ayrı bir daşa yazılaraq əvvəlki daşın yerinə qoyulmuşdur. Bu h. 1190, miladi 1776-cı ildə olmuşdur.[29]

Bu baxımdan rus tədqiqatçılarının araşdırmaları diqqəti cəlb edir. Onlar mağaranın, onunla bağlı rəvayətin tarixini xristianlıqla bağlamağa çalışırlar. Hətta rəvayətdəki Dağ Yunisin Roma hökmdarı Detsiy olduğunu iddia edirlər.[30] Bu yazılarda ancaq Efesdəki mağaradan danışılır. Başlıca diqqət mağaranın deyil, rəvayətin yaranma tarixinə yönəlmişdir.

Əbu Reyhan Biruninin də fikirləri bu istiqamətdədir. Bunun səbəbi isə onun rəvayəti xristianlar arasından toplamasıdır.[31]

Naxçıvandakı "Əshabi-Kəhf'lə bağlı rəvayət 1881-ci ildə K.Nikitin tərəfindən toplanmış və nəşr edilmişdir. Onun toplanmış olduğu rəvayət cüzi dəyişiklərlə bizim verdiyimiz rəvayət kimidir. K.Nikitinin təqdim etdiyi rəvayətdə bu ifadə diqqəti cəlb edir: "Təmlixa şəhərə gələrkən bazarda öyrənir ki, şəhərdə iki hökmdar var: müsəlman və xristian. Şəhər darvazasına asılmış bayraqda yazılıb: "Allahdan başqa Allah yoxdur".[32] Bu fikir ümumi səmavi dinlər üçün xarakterikdir. Şifahi xalq ədəbiyyatından, toplanmış etnoqrafik materiallardan məlumdur ki, Naxçıvanda, ümumiyyətlə,

islam dünyasında bu ifadə "Lailahəillallah" kimi işlədilir. Bizcə, müəllif bu fikiri verərkən xristianlığa yol açmaq üçün zəmin yaratmışdır. Digər tərəfdən müəllif materialları kimdən toplanması haqqında məlumat vermir. Ümumiyyətlə, rəvayətin heç bir variantında bu məsələ yoxdur. Bu müəllifin çox ustalıqla 1828-ci ildə Naxçıvana İran ərazisindən köçürülmüş xristianlara (ermənilərə-H.Q)hakimiyyət vermə fikrindən irəli gəlir.

Müəlliflərin başlıca arqumenti rəvayətin islamdan əvvəl baş verməsi, yatmışların qayıtdığı zaman tək Allahlığın olmasıdır.

Toplanmış materiallar göstərir ki, rəvayət Orta Asiya türkləri arasında da məlumdur. Bu haqda ilk elmi məlumat A.Kalmıkov tərəfindən verilmişdir. Lakin müəllif tərcüməçisinin pis olmasına görə rəvayəti tam toplaya bilmədiyini söyləyir.[33]

Bir araşdırıcı olaraq həmin bölgədən "Əshabi-Kəhf"lə bağlı rəvayətin aşkar edilməsi bizlər üçün maraqlı idi. Çünki biz rəvayətin türk dünyasında formalaşmaqla, onlara aid olduğunu təxmin edirdik.

Nəhayət, 1978-ci ildə Orta Asiya türklərin etnoqrafiyasının öyrənilməsində xüsusi xidmətləri olmuş Q.P.Snesarevin məqaləsi bu sahədə yeni fikirlər söyləməyə imkan verdi.[34] Q.P. Snesarev yazır ki, rəvayətin açarını Orta Asiyada deyil, Kiçik Asiyada axtarmaq lazımdır. Topladığı iki rəvayətdə hökmdarın adı Dağ Yunis göstərilsə də, müəllif onun Roma imperatoru Kay Messiy

Kvint Troyan Detsiy /201-251-ci illər/ olduğunu sübut etməyə çalışır.[35]

Müəllifin fikirlərinə görə, bu rəvayət ancaq bütpərəst Roma hökumdarı tərəfindən xristianların sıxışdırılması və qətlamı ilə əlaqəli yaranmışdır.[36]

Biz yuxarıdakı qaynaqlarda bu fikrin elmi cəhətdən əsaslandırılmadığını göstərmişik.

Fikirlərini davam etdirərək Q.P.Snesarev rəvayətin Orta Asiyaya islam, onun müqəddəs kitabı "Qurani-Kərim" vasitəsi ilə yayılması ideyasına qarşı çıxaraq yazır ki, bizim qənaətimizə görə, rəvayətin Xarəzmdə yayılmasında Quran əsas mənbə deyil.[37]

Böyük çək-çevirdən sonra rəvayətin əraziyə xristianlar vasitəsilə gətirildiyini iddia edir. Yəni Aralın cənubunda xristianlığın geniş yayıldığını irəli sürür.[38]

Elə həmin yerdə yazır ki, Xarəzm xristianları haqqında çox az məlumat var.[39]

Q.P. Snesarevin yazısında rəvayətin Xarəzmdə yayılmış 2 variantı verilmişdir. Rəvayətin birində qaçanlara şahın oğlu başçılıq edir. Oğlan və 5 dostu zülmdən qaçırlar. Yolda çobanla rastlaşırlar. Sonrakı hadisələr eynilə Naxçıvandakı kimidir. Gənclərin adları Temrixo, Maksalmino, Kaçputat, Kaşofat, Tab-Yunus, Ozurpat-Yunus, itin adı Katmir.

Bu rəvayətdə gənclərin min il yatdığı göstərilir. İkinci rəvayətin süjeti isə tamamilə fərqlidir. Guya bir şah öz qızına evlənmək istəyir. Bu işdən narazı olan vəzirləri paytaxtı tərk edib mağaraya sığınırlar. Dağ Yunis onların ardınca ordu göndərir. Gəlib görürlər ki, mağaranın qabağında göyərçin bala çıxarıb. Düşünmüşlər ki, deməli onlar mağaraya girməyiblər. Qayıdıb gedirlər. Sonrakı süjet eynidir.

Müəllif rəvayəti toplasa da, onun yayılması ilə bağlı məsələdə özündən əvvəlki xristianlıq nəzəriyyəsinə üstünlük vermişdir. Roma –Yunan nəzəriyyəsini müdafiə edən müəllif A. Krımskiyə söykənərək rəvayətin tarixi olmadığını söyləyir.[40] Bu isə "Qurani-Kərim"dəki fikrə ziddir. Çünki "Qurani-Kərim"də bu, olmuş hadisə kimi verilmişdir. Müəllif rəvaətdən çox xristianlığın yayılmasını ön plana çıxarır. Necə olsa, hər halda rəvayətin yayılması barədə məlumat vardır.

Rus tarixçiləri və folklorçuları bunu mif, əfsanə kimi təqdim etsələr də, "Qurani-Kərim"ə daxil olmuş hər bir hadisə Allahın kəlamı olmaqla, tarixi həqiqətdir. Deməli, o, mütləq baş vermişdir.

Bizcə, burada kəsinliklə xiristianlığı önə çəkmək olmaz. Ola bilər ki, xristianlıqdan əvvəl Təktanrıçılıq dövrünə aid olsun. Xüsusən, türklər islam və xristiançılıqdan çox əvvəl Təktanrıçı olmaqla, Göy Tanrıya inanmışlar. Lakin türkün bir qövmü uzun olmayan bir müddətcə Tək Tanrını unudub, kafir oldu.[41] Xüsusən Qara xanın zamanında bu məsələ daha da kəskinləşir. Lakin oğlu

Oğuz xan böyüdükdən sonra atasını öldürüb ölkədə yenidən Tək tanrıçılığı hakim edir. Əbdülqazi Bahadır Xanın məlumatından aydın olur ki, Oğuz xan təqribən bizdən 4 min il əvvəl yaşamışdır.[42]

Tanınmış türk alimi M.Fahrettin Kırzıoğlu da oğuzların tarixini 3500 ildən çox hesab etməklə, ilk Qıpçaqların Qafqazda bir toplum halında görünmələrini M Ö. VIII yüzilliyə aid edir. Yəni onların oğuzlardan tam ayrılması bu vaxt baş vermişdir.[43] Təbii ki, Oğuzlar Qafqazda Tək Tanrıçılıq ideyasını yaymış və ona əməl etmişlər.

Bir sıra türkçülüyün əleyhinə olan tarixçilər yuxardıkıları qəbul etmirlər. Oğuz xanı çox vaxt Hun hökümdarı Möde hesab edirlər. Lakin ondan əvvəl türklərin Ön Asiyada və Qafqazda yaşadıqları təzkibedilməzdir. Deməli, rəvayətin genezisində Türk Tək Tanrıçılığının durduğunu söyləməyə əsas vardır. Bunu sübut edəcək bir sıra amillər mövcuddur: Rəvayətin yayılma arealı, mağaranın yerləşdiyi bölgələr, süjetdəki adlar, mağara ilə bağlı inancların xarakteri və genezisi.

Yayılma arealını nəzərə alaraq rəvayətin türk xalqları arasında formalaşdığını qəti söyləmək olar. Yuxarıdakı faktları analiz edərkən bu hadisənin məhz Naxçıvanda baş verdiyi ortaya çıxır. Həmin fikri əsaslandırmaq üçün aşağıdakı faktlara diqqət yetirək.

Hazırda Naxçıvanda yayılmış rəvayətdə Dağ Yunisin şəxsiyyəti, onun Araz çayının sol sahilində böyük bir şəhər saldığı, suvarma üçün "Dağ Yunisin çarxı" adlanan yerdə böyük qurğunun olduğu, həmin yerin "Əshabi-Kəhf"ə yaxın olan Nehrəm kəndində eyni adla məlum olması söylənməkdədir. Deməli, Dağ Yunisin məsələsi ancaq məlum rəvayətlə bitmir. Maraq doğuran bir məsələ var. Necə olur ki, harada yayılmasından asılı olmayaraq, bütün rəvayətlərdə hökmdarın adı Dab Yunis olduğu halda müəlliflər onu roma-yunanlara bağlamaq üçün dəyişdirirlər. Hansı ki, türklərdə dağla başlayan adlar geniş yayılmışdır. Oğuz xanın üç kiçik oğlunun birinin adı Tağ (Dağ) xandır.

Rəvayətdən məlum olur ki, vəzirin adı Təmirxandır /adın Tamıriho, Tamireyxa, Temilhan deyilişləri də vardır/. Bütün variantlarda türklərdəki Temir əsas götürülməlidir. Hazırda türklərdə Timur,Teymur, Kantemir, Temirtaş və s. adlar geniş yayılmışdır. Rəvayətdəki itin adı bütün variantlarda Kitmir,Ketmir, Katmir kimidir.

Məlumdur ki, bütün səylərə baxmayaraq, it qayıdıb getmir. Qeyd edək ki, məhz Naxçıvanda itin basdırıldığı yer "Qitmir" adlanır.

Maraqlı məsələ rəvayətin hansı istiqamətdə və necə yayılmasıdır. Rəvayətin Orta Asiyada zəif olması, burada mağaraların haqqında xəbər verilməməsi onun qərbdən başlayaraq yayıldığını söyləməyə imkan verir.

Orta Asiya variantında təsvir edilən mağaralarla bağlı rəvayətlərdə Həzrəti Peyğəmbərimizin Hicrət zamanı Sevr mağarasına sığınarkən baş vermiş hadisələr daxil edilmişdir: Zülmdən qaçanlar mağaraya sığınırlar, onların ardınca düşənlər gəlincə mağaranın girəcəyində hörümçək tor toxuyur, göyərçin bala çıxarır.[44] Digər bir variantda isə mağaranın çox kiçik olduğunu görməkdəyik: "Onlar mağaraya daxil olduqdan sonra girəcəyi daşla qapadılar".[45]

Bizcə, rəvayət Orta Asiyaya iki vasitə ilə yayıla bilər: birincisi Qərb və Şərq türklərinin mütəmadi əlaqələri, ikincisi, İslamı qəbul etdikdən sonra "Qurani-Kərim" vasitəsilə. Lakin buradakı rəvayətlərdə də müxtəlif variantların olması hər iki yolla yayıldığını söyləməyə imkan verir.

Rəvayətin xristianlıq və ondan əvvəlki dövrə aid olması da daha çox Naxçıvanla, buranın qədim qıpçaq türk əhalisilə səsləşir. Bununla bağlı "Kitabi-Dədə Qorqud"da "Uşun qoca oğlu Səkrək boyu"na diqqət yetirək: Əkrək Qazan xandan axın /ordu/alıb Şirokozdan çıxıb Göycə dənizinə qədər çalıb-çapır. Yolu kafərin əlində olan Əlincə qalasına düşür. Qara Təkurun adamları tərəfindən əsir götürülür. Qardaşı Səkrək böyüdükdən sonra cənub istiqamətindən (Dərəşam suyu) Əlincəyə gəlib qardaşını azad edir. Deməli, Əlincə müsəlman /tək tanrıçı/olmayan qıpçaqların əlində idi. Dastanda rast gəldiyimiz:

Yarım kərpic yastıqlı,

Yonma ağac tenrili,

Köpəkim kafər.[47]

sozləri ətrafdakıların bütpərəst və ya ikonaya inanan /xristian/ qıpçaqlar olduğunu göstərir. Qeyd edək ki, "Əshabi-Kəhf" Əlincə qalasının yaxınlığındadır. Araları 10 km-ə qədər olar.

"Dədə Qorqud"dakı kafər dinsizdir. Azğın dinlidir. Adam ətindən qovurma hazırlayırlar. Deməli, onların məmləkətində tək tanrıçıya aman yoxdur.

Məsələ ilə bağlı Əbdülqazi Bahadır xanın məlumatına diqqət yetirək: "Türk xalqı Yafəsdən ta Əlincə xan zamanına qədər müsəlman (tək tanrıçı-H.Q.) idi.

Əlincə Xan padşah olduqdan sonra xalqın sayı və malı çox oldu və Kara xan zamanında kafərlikdə elə möhkəm idilər ki, əgər atasının müsəlman (tək tanrıçı-H.Q.) olduğunu eşitsə-oğlu öldürər, oğlu olsa, atası öldürərdi".[48]

Deməli, bu baxımdan da türklərə bağlılıq danılmazdır. Xristianlıqla bağlı fikirlərə gəlincə qeyd etməliyik ki, Qərbi Azərbaycan, Qars bölgəsi, o cümlədən Naxçıvan ərazisində M.Ö. Tək Tanrıçı qıpçaq-bulqar-peçenek-oğuz türkləri məskunlaşmışdılar. Onlarla zərdüştlər arasında tez-tez toqquşmalar baş verirdi. Sonrakı dövrlərdə məhz həmin türklər xristialığı ilk qəbul edib "Yuxarı ellər",tarixi Qərbi Azərbaycan, (indiki Ermənistan) adlanan bölgəyə də xristianlığı yaymışlar.

Qriqoryanlıq isə əslən Xorasan Ərsak türkü Əziz Anaq oğlu Qriqor tərəfindən yayılmışdır.[49]

Tarixi mənbələr göstərir ki, Naxçıvan bölgəsində, eyni zamanda Araz çayının güneyində Naxçıvanla qonşu olan ərazilərdə xristianlarla atəşpərəs sasanilər arasında döyüşlər olmuşdur. Həmin döyüşlərdə xristian-qıpçaqlar; bulqar-vənənd türkləri romalılarla bərabər vuruşmuşlar.451-ci ildə Maku yaxınlığındakı Avarayr döyüşündə 66 minlik Roma ordusunun 4 qolundan üçüncüsünə qıpçaq sərkərdəsi Vənənd Tatul komandanlıq edirdi.[50]

Ümumiyyətlə, qeybə çəkilənlərin 7 nəfər olması, 7 rəqəmin müqəddəs sayılması ilə bağlı inamın izini qədim şumer dastanı "Bilqamıs"da da görürük:

Divar bişmiş kərpicdən bərk hörülüb başa-baş
Yeddi müdrikmi qoyub qalanın himinə daş?[51]

Buradakı "yeddi müdrik" yeddi müqəddəs kimi də işlədilir. Dastanda uzun müddət yatma süjetinə rast gəlirik. Bilqamıs əbədi həyat üçün Utnapiştinin yanına getdikdən sonra onu yuxu tutur. 7 gün yatır.[52]

"Kitabi-Dədə Qorqud"da oğuz igidləri 7 gün yatırlar və buna "kiçik ölüm" deyirlər.[52]

Qeyd edək ki, türk ədəbiyyatında yeddi yatmışların "Bilqamıs"dakı yeddi müdriklərlə qarşılaşdırmalarına rast gəlinir.[54]

Anadolu Bektaşiləri arasında 7 rəqəmi ilə bağlı bir rəvayət diqqətimizi cəlb etdi. Bu məsələdən bəhs edərək prof. dr. Hikmət Tanyu yazır: "7 və yeddilər onlara görə hz. Əli tərəfdarları olub Yezit əsgərlərinin zülmündən qaçaraq bir mağarada gizlənib yuxuya dalırlar. Yeddilər, Yemlihalar, o mağarada 300 il yatanlar olub. Yemliha ,Makselina, Bernuş, Debernuş, Kefete-Tayyuş, Şaznuş və Kitmir adlı itləri olaraq ifadə edilməkdədir. Rəvayətin fərqli şəkilləri vardır".[55]

Bu, rəvayətin elm aləmində ən az məlum olan variantıdır. Təbii ki, bu variant sonralar yaranmışdır. Naxçıvanda, ümumiyyətlə, Azərbaycanda rəvayətin bu variantı məlum deyil. Lakin bir məsələni qeyd etməliyik ki, Əhli-Beyt övladlarına zülm edildikdə onların bir çoxu Azərbaycana, o cümlədən Naxçıvana pənah gətirmişlər.Ha-zırda Naxçıvanda onlarla bağlı 3 imamzadə var.

Rəvayətin əski çağdan türklərlə bağlı olduğunu təsdiq edəcək əsas amillərdən biri "Əshabi-Kəhf"dəki inanclardır. Araşdırmalar göstərir ki, buradakı inanclar qədim türklərə aid olmaqla, arxaik xarakter daşıyır. Toplanmış materiallara söykənərək demək olar ki, sırf islamla bağlı inanclar yox dərəcəsindədir. Əməl edilən adətlər və inanclar türklərin qədim dünyabaxışı, təbiət kultu ilə əlaqəlidir. Həmin inancları belə sıralamaq olar: Dağ-daş-mağara kultu, su kultu, ağac kultu...

II Bölüm.

## ZİYARƏTƏ HAZIRLIQ, ZİYARƏTİN KEÇİRİLMƏSİ

«Əshabi-Kəhf» müqəddəs ocaq olmaqla, insanlar çox qədim dövrlərdən buranı ziyarət etmişlər, hətta Sovet dövlətinin ciddi qadağasına baxmayaraq, həmin illərdə də Naxçıvan,həmçinin Qərbi Azərbaycanın digər bölgələri, xüsusən Dərələyəz, Qara Kilsə, Zəngəzurun müsəlman-türk əhalisinin müqəddəs ocağı sayılan «Əshabi-Kəhf»i ziyarətə yasaq qoyula bilmədi. Toplanmış materiallar sübut edir ki, Naxçıvan və indi Ermənistan adlanan Qərbi Azərbaycanın bütün müsəlman əhalisi heç olmasa, həyatında bir dəfə «Əshabi-Kəhf»i ziyarət etməyi özünə borc bilmişdir. Ziyarətə gedən adamın özü ilə başqalarını,xüsusilə ziyarət arzusunda olub, getmək imkanı olmayanları aparması çox böyük savab sayılırdı.

El arasında deyirlər ki, «Əshabi -Kəhf»i yeddi il dalbadal ziyarət etmək Kərbəla, hətta Həcc ziyarətinə bərabərdir. Yəni kimin həmin ziyarətgahlara getmək imkanı yoxdursa, bura getməklə savaba çata bilər. Ziyarətə daha çox ailəvi gedilməsi məqbul hesab olunur. Ziyarət üçün heç bir yaş məhdudiyyəti qoyulmur.

Ziyarətin dəqiq vaxtı yoxdur. İlin istənilən fəslində ziyarətə getmək olar. Lakin təsərrüfat işləri, həmçinin qurbanların böyüməsi və kökəlməsi ilə bağlı olaraq ziyarətə daha çox yayın son ayı və payızda ilk qar yağana qədər gedirlər.

Heyvandarlıqla məşğul olanların çoxusu ilk doğulan erkək heyvanı /quzu və ya çəpic/ qurbanlıq adlandırır, ona xüsusi baxardılar. Qurbanlığın itməsi və ya ölməsi yaxşı əlamət sayılmazdı.

XX yüzilliyin 60-cı illərinə qədər ziyarətə əsasən at, ulaq, qatır, hətta dəvələrlə getmişlər. Ziyarətə gedən bir neçə qohum ailə birləşib «qafilə» təşkil edirdilər. Qafiləyə daxil olanların hamısı zəvvar adlanırdı. Qafiləyə yaşlı,dindar kişilərdən biri rəhbərlik edirdi.Hər qafilədə ziyarətə getmək imkanı olmayan, qurban aparmayan müəyyən yaşlı adamlar olurdu.Yəni arzusu olub, imkanı olmayanlara da yardım edilirdi.

Xalq arasında olan inama görə, natəmiz,cənabət, heyz və Nüfas qüsurlu olanlar ziyarətə gedə bilməzlər. Yəni o,ziyarətgaha girə bilməz. Buna görə də ziyarətdən əvvəl yuyunmaq vacib sayılır.

Məsafədən asılı olaraq bir və bir neçə gün yol gedirdilər. Uzaqdan gələn zəvvarlar bir neçə yerdə dayanır, dincəlirdilər. Bu vaxt yüngül yemək yeyilirdi. Qurbanlar cavan oğlanlar tərəfindən birlikdə sürülüb aparılır. Hansı qurban yolda o tərəf bu tərəfə

qaçırsa,deyirlər: «Könüllü getmir». Qurbanın «Əshabi-Kəhf»dən qaçıb itməsi pis əlamət sayılır.

Zəvvarlar özləri ilə vacib ərzaq, odun, paltar-palaz, xörək hazırlamaq üçün qab götürürdülər. Müxtəlif istiqamətdən gələn zəvvarlar ziyarətgaha yaxın bulaq və çeşmələrdən su doldururdular. «Əshabi-Kəhf»ə aparılmış odunun artığı geri qaytarılmazdı. Orada bir yerə toplanardı ki,ehtiyacı olanlar istifadə etsin.

«Əshabi-Kəhf»ə piyada getmək çox savab sayılır. Topladığımız materillardan aydın olur ki,niyyəti yerinə yetmiş bəzi zəvvarlar uzun, hətta 30-40 km məsafəni piyada, ayaqyalın gedib qayıtmışlar. «Əshabi-Kəhf»ə dörd ətrafdan gedən yolların daşlardan,kol-kosdan təmizlənməsi savab hesab olunur. Eyni zamanda yolları təyin etmək üçün hər 50-100 metrdən bir kiçik daş qalaqları yığılırdı.Məhz buradan daş inamı başlayır. İnama görə hər kəs öz düşməninin adını çəkib dərəyə bir daş atarsa,düşməni bəlaya düşər.Bu inam «filankəsin daşınıatma» adlanır.

Toplanmış materiallara əsaslanaraq demək olar ki, ziyarətlə əlaqəli ilkin inanclar daş, su, ağac kultu ilə bağlıdır. «Əshabi-Kəhf»in ətrafındakı yol boyu, xüsusən əsas yol istiqamətində bütün kollara, ağaclara əl yaylıqları, müxtəlif rəngli parçalardan kəsilmiş hissələr ( xalq arasında cındır,çapıd,əski deyə tanınır. Son illərdə bunlara lenta deyirlər) bağlanır ki, bunlar

da «niyyət», «dilək» adlanır.Yaxın 10 ilə qədər ətrafdakı kollar belə parçalardan örtülü idi.Lakin son illərdə heç bir əsas olmadan onları təmizlədilər və yaxud kollar kəsildi. İndi də yolun ətrafındakı kollara əski bağlanır.

«Əshabi-Kəhf»ə çatmamış, yolun kənarında çoxlu qəbirlər vardır. Zəvvarlar ilk öncə həmin qəbirləri ziyarət edirlər. Yəni sadəcə mərhumların ruhuna fatihə oxuyur, Allahdan rəhmət diləyirlər. Qəbirlərin burada nə vaxdan və kimə məxsus olduqları məlum deyil. Aşağı hissədəki qəbirstanlıq isə vaxtilə burada mövcud olmuş Haçaparaq kəndinə aiddir. Bu, atalar ruhunu yad etməkdir.

Rəvayətlə bağlı olaraq ilk ziyarət olunan mağaradan 100-120 metrə qədər aralı, yolun sol tərəfində çobanın itinin-Qitmirin basdırıldığı yerdir. Rəvayətdə «...çobanın iti basdırdıqdan sonra əl ağacını üstünə taxdığı»-söylənilir. Sonralar islamla bağlı olaraq yuxarı hissəsində beş barmaq olan ağac taxılmışdır.

Tanınmış türkoloq alim Yaşar Kalafat bunu «beşbarmaqlı kutsal məqam»adlandırır.[56]

Mağarada müqəddəsləri ziyarət etmədən və bir sıra ayinləri yerinə yetirməzdən əvvəl gətirilmiş qurban kəsilir. Qurban kəsilməmişdən öncə ona su verilməsi, kəsilərkən qurban duası oxunmasına əməl olunur. Ziyarətgahın ətrafında natəmizlik olmasın deyə, buradan xeyli aralı, yolun sağ tərəfində qurban kəsmək üçün ayrıca yer düzəldilmişdir. Qurban xüsusi adamlar

tərəfindən pulla kəsilir. Bacaranlar qurbanı özləri kəsirlər. Qurban kəsilərkən qurban sahibinin sağ əlini kəsən adamın sağ əlinin üzərinə qoyması adətinə rast gəlinir. İnama görə, bununla qurban sahibləri heyvanı özləri kəsmiş hesab edilir.

Son illərdə burada əsaslı bərpa, quruculuq işləri aparılmışdır. Yola asfalt döşənmiş, ziyarətgahın aşağı hissəsində (həyətində) zəvvarların oturması, günəşdən və yağışdan qorunması üçün xüsusi yerlər düzəldilmiş, daimi içməli su çəkilmiş, ayrıca otaqlar hazırlanmışdır.

Ümumiyyətlə, zəvvarlar üçün lazım olan şərait yaradılmışdır. Mağaranın içərisindəki yollar qaydaya salınmış, ziyarətgaha xüsusi pilləkənlər düzəldilmişdir. Allah qəbul etsin! Bu işdə əməyi keçənlərə yardımçı olsun!

Qurbankəsmədən sonra mağarada müqəddəs yerləri ziyarət etməyə başlayırlar. Qeyd edək ki, mağaranın təbii girişi indiki pilləkənlərdən sol tərəfdə yerləşmişdir. Min illər boyu insanların gedib-gəlməsi nəticəsində girişdəki daşlar sürüşkənləşmişdir. Bir zamanlar yerişi asanlaşdırmaq məqsəd ilə daşlardan ayaq qoymaq üçün yerlər (ayaq izləri), pillələr düzəldilmişdir. İndiki pilləkən isə mağaranın aşağı hissəsindəki sıldırımda qurulmuşdur.

İnsanların ilk rast gəldikləri möcüzə girişin başlanğıcındakı kiçik bulaqdır.Hər tərəf sərt qayalar, bu qayaların altından sızıb gələn bulaq sanki şəfa suyudur. Bu, qədim mağara sakinlərinin,

sonrakı dövrlərdə zəvvarların min illər boyu istifadə etdikləri yeganə içməli sudur. Təqribən 15-20 il bundan əvvəl bulaq qurumuşdur. Yaşlı adamlar bunu natəmizlik edilməsi ilə əlaqələndirirlər. Lakin bu yaxınlarda biz ziyarətə gedərkən bulağın çıxıb axdığını, kənardan çəkilmiş suyun donması ilə əlaqəli olaraq onun yenə də yeganə içməli su olduğunu gördük. Daşlardan su fısqırdan şanı Uca Allaha çox şükürlər! Möcüzə yenə də möcüzədir.

Mağarada su kultu geniş yayılmışdır. "Damcıxana" ilə bağlı bu məsələdən bəhs edəcəyik.

Bulaq xalq arasında «Yeddi kimsənə»adlanan ziyarət yerinin aşağı tərəfindədir. «Yeddi kimsənə» «Əshabi-Kəhf»in girişinin sol tərəfində qabağa doğru əyilmiş qayanın altındadır. Sanki sığınacaqdır. Rəvayətə görə, 7 müqəddəs burada qayaya söykənərək qeyb olmuşlar. Divarda 4 iz aydın görünür. Sanki insan divara söykənmiş, izi qalmışdır. Xalq arasında olan inama görə, bu, qeybə çəkilmiş 7 nəfərin kürəklərinin izləridir. Həmin məqama çıxan hər bir zəvvar müqəddəslərin izlərini öpür, bilənlər ehtiram və ziyarət namazları qılırlar. Eyni zamanda, xəstə uşaqları müəyyən müddət burada yatırmaq və s.inanclar vardır.

Mağaranın içərisində, «Yeddi kimsənə»dən sonra ziyarət edilən məqam hz. Əli və onun atı Düldüllə bağlıdr. Rəvayətə görə, həzrəti Əli bura ziyarətə gəlmiş, Düldül sol tərəfdəki qayadan sağdakı qayaya sıçramış və həmin qayada dal ayaqlarının izi çala

kimi qalmışdır. İnsanlar niyyət edib yerdən təqribən 5-6 metrə qədər hündürlükdə olan həmin çalalara kiçik daşlar atırlar. Niyyəti hasil olanın daşı orda qalır. Bir qayda olaraq 3 daş atılır.

Mağaranın daxilinə girdikcə ətrafdakı ağac və kollara parçalar bağlanır. Mağaranın daxili yüksələn formada olmaqla, yuxarı tərəfdə, məscidə və «Cənnət bağına»çıxan yolun solundakı qayada deşik vardır. Niyyəti olanlar deşikdən keçib həmin qayanın başına üç dəfə dolanırlar. Bunu daha çox xəstələr, doğmayan qadınlar və uşaqlar edirlər.

Məscidin qabağındakı «Qaradaş»ın və «Damcıxana»nın ziyarəti əsas məqamlardan hesab edilir. Əvvəllər gətirilmiş nəzirlər qaradaşın yanına və ya üstünə qoyulardı.Son illərdə isə bununla yanaşı, nəzirlər məscirdə də qoyulur. Qaradaşı müqəddəs hesab etməklə, onu öpür, daş yapışdırırlar. Bəzən xəstələr niyyət edib qaradaşın yanında yatırlar. Bir sıra xəstələrin buradan nicat tapıb qayıtması söylənilir.

Məscidə ancaq namaz qılanlar və nəziri olanlar girirlər. Məscidin kişilərə aid hissəsində, qiblə tərəfdə ərəb əlifbası ilə yazılmış iki kitabə vardır. Niyyət edib məsciddə yatmaq adəti mövcuddur.

«Damcıxana»məscidin yuxarı tərəfində, bir neçə metr hündürlykdə yerləşir. Açıq salon şəklində olan həmin yerdə tavandan su damır. Maraqlıdır ki, ilin yağışlı və quraqlıq keçəməsindən asılı olmayaraq, burada damcı kəsilmir. Bu

məqamda hər cür niyyət etmək olar. Yəni həm xəstələr, həm də hər hansı bir arzusu olan niyyət edib oturur. Damcının başa və ya çiyinə düşməsi niyyətin tez hasil olacağı, aşağı ətraflara, bədənin hər hansı bir yerinə düşməsi isə nisbətən gec hasil olacağı kimi yozulur.

Lakin damcı düşməsə, deməli, niyyət qəbul olunmur. Bir neçə dəfə müşahidə etmişik ki, başına və ya bədəninə damcı düşməyən adam bir neçə dəfə yerini dəyişib. Hətta, ondan əvvəl oturanın başına damcı düşən yerdə əyləşib, onun başına və ya bədəninə damcı düşməyib. Yəni dəqiqliyi ilə mağaranın damcılı və ya damcısız yeri yoxdur. Bəzən damcı ən quraq yerdən düşür.

Ziyarətgahda ən uca (yüksək) məqam «Cənnət bağı» adlanan yerdir. Əvvəllər bura çıxmaq çox çətini idu. İndi isə dəmir pilləkənlər bu işi asanlaşdırmışdır. Silindirik formalı, hər tərəfdən yüksək qayalarla əhatə olunan bu məqam duaların qəbul olunduğu yer sayılır. Burada gündoğana doğru qayaların arası ilə dar keçid qalxır. Keçidin baş tərəfində, sıldırım qayada bir dağdağan ağacı bitmişdir. Həmin ağaca dilək üçün parçalar bağlanır. Keçiddən qalxdıqdan sonra qarşıdakı dərədə çoxlu sayda kollar və ağaclar vardır. Həmin dərə ziyarət edilmir.

Biz əvvəlcə elə düşünürdük ki, məhz bu yaşıllığa görə bura «Cənnət bağı» adlanır. Lakin o ziyarətgaha daxil deyil. Beləliklə, ziyarətgahın daha çox mənəvi təmizlənmə və Allaha yaxınlaşma məqamı olduğu aşkarlanır. Aşağıdan yuxarıya

doğru ziyarət edərək qalxan insan dünyəvi aləmdən ayrılır. Sanki rəbbani məqama daxil olur, özünü bağışlanmışlardan sayır. Əlbəttə, bu məqam ancaq yüksələ bilənlər, qulun Rəbbinə qovuşmasını dərk edənlər üçündür. Belə hallarda qıssa zaman daxilində kamil insanın Ali məqama yüksəlməsi baş verir. Cismən ibadətdə olan aşiq ruhən özünü cənnətdə hiss edir. Deməli, zamanın övliya-övsiyaları buranı «cənnətin qapısı» adlandırmışlar. Yəni «Cənnət Babı»demişlər. Zaman keçdikcə « Cənnət Babı»-« Cənnət Bağı»na çevrilmişdir.

«Əshabi-Kəhf»də yemək hazırlamaq adəti geniş yayılmışdır. Bəzi zəvvarlar burada geniş ehsan verirlər. Ümumiyyətlə, hazırlanmış xörəkdən başqalarına yedizdirmək böyük savab sayılır. Bişirilmiş xörəkdən evə gətirib tütüyə kimi paylamaq adəti vardır. Eyni zamanda, evdən aparılmış şimiyyatın, çörəyin ayrı-ayrı məqamlara, xüsusən «Yeddi kimsənə» və «Qara daş»a sürtüb, qayıtdıqdan sonra paylanması inamı geniş yayılmışdır.

Kəsilmiş qurbanın ətindən qohumlara , qonşulara, imkansızlara paylayırlar.Xalq arasında belə bir deyim mövcuddur: "Qurban əti ən azı 7 evə verilməlidir".

Ziyarətlə bagl məsələləri araşdırarkən mə"lum olmuşdur ki,bura müxtəlif məqsədlər üçün gəlirlər.

1.Ümumi ziyarət üçün.

2. Uşaq olması üçün.

3. Xəstəliklərdən qurtarmaq üçün.

4. Gələcək taleyini bilmək üçün.

5. Diləyi yerinə yetdiyi üçün.

Məqsədlər müxtəlif oldugu kimi, ziyarətetmənin formaları da fərqlidir.

1. Ancaq qurban kəsib qayıtmaq.
2. Bütün məqamları ziyarət etmək.
3. Əski baglamaq.
4. Daşyapışdırma, daşatma.
5. Niyyətlə bağlı olaraq beşik qurmaq, evcik düzəltmək.
6. Ziyarətgahlara nəzir qoymaq.
7. Şam yandırmaq..
8. Məqsədə nail olmaq üçün ziyarətgahın ayrı-ayrı məqamlarında yatmaq və ya uşaqları yatızdırmaq.
9. Ziyarətgahda ehsan vermək.
10. Aparılmış yeyəcək və ya şimiyyatın məqamlara sürtülüb ziyarətdən qayıtdıqdan sonra tütüyə kimi paylanması.
11. Qurban ətinin paylanması.

Toplanmış materiallar sübut edir ki, bura gələnlərin əksəriyyəti əməl edilən adət və inancların ata-babadan

qalma olduğunu söyləməklə əsl mahiyyətini bilmirlər. Hansı ki, inancların demək olar ki, hamısı çox qədim tarixə malik olmaqla, xalqımızın qan yaddaşında yaşadılan, türk kimliyimizdən xəbər verən, Naxçıvanda qədim türklük pasportunu daş çağından günümüzə qədər qoruyub saxlayan, heç bir dinin dəyişə bilmədiyi mə"nəvi sərvətimizdir.

Məhz bu inamların genezisinin, digər türk xalqları ilə qarşılıqlı paralellərinin öyrənilməsi "Əshabi-Kəhf"lə bağlı problemlərin həllində əsas amillərdəndir. Bütün bunları nəzərə alaraq biz ən geniş yayılmış inancların xarakterini və genezisini yığcam halda oxucuya çatdırmaq qərarına gəldik.

III. Bölüm.

# İNANCLAR SİSTEMİ

## 1.DAĞ, DAŞ, MAĞARA KÜLTÜ.

«Əshabi-Kəhf» Naxçıvan ərazisində ən müqəddəs dağdır. Müqəddəslik buradakı mağara və onunla bağlı rəvayətlərlə əlaqədardır. Rəvayətdən aydın olur ki,müqəddəs yatmışlar mağaranın içərisinə doğru hərəkət etməmiş, girəcəyə yaxın yerdə yuxuya dalmışlar. Oyanıb hadisəni bildikdən sonra Allaha yalvarmışlar ki, burada onları qeybə çəksin. Beləliklə, mağaranın girəcəyindən sol tərəfində, «Yeddi kimsənə» adlanan yerdə qeybə çəkilmişlər. Rəvayətdə onların həmin yerdən yuxarıya, yəni indiki məscid, «Damcıxana» və «Cənnət bağı»na getmələrindən bəhs olunmur.

Deməli, dağda Allah onları istəyinə çatdırdı. «Əshabi-Kəhf»də girəcəyin sağ tərəfindən,dağın üstündə qayalar elə düzülmüşdür ki, sanki göbələyi xatırladır. Özgə sözlə desək, duaları Tanrıya çatdıran, ötürücü rolunu oynayır. Yuxarı qalxdıqca məscid və «Damcıxana»nın yerləşdiyi ərazi nisbətən dairəvi, silindrik formalıdır. «Cənnət bağı» adlanan ən yüksək məqam isə tam silindrikdir. Əvvələr bura çıxmaq çox çətin idi. Məhz ağır diləyi

olanlar,sonsuzluqdan qurtarmaq istəyənlər bura çıxıb dua edər, simvolik nənni qurar və evcik düzəldərdi. Burada duaların ən çox qəbul olunan yeri şərq istiqamətində dağın başına qalxan dar keçiddir. Keçidin başında ötürücü rolunu oynayan daşlar və tək dağdağan ağacı vardır.

Maraqlıdır ki,«Əshabi-Kəhf»in ətrafındakı bir neçə dağ müqəddəs sayılır. «Nuh tufanı»ilə bağlı Haça dağ (İlanlı dağ da deyirlər), Nəhəcir// Nuhəcir,Göynük piri-Göynük dağı.

Silindirik formalı ibadətgahlara çox qədim zamanlardan rast gəlinir.

2001-2002-ci illərin yayında Gəmiqayada elmi axtarışlar zamanı mənim başlıca məqsədlərimdən biri qayaüstü təsvirlərin öyrənilməsi ilə bərabər, ulu babalarımızın daha Ali məqamını-Tanrıya çıxış yerini müəyyənləşdirmək idi.

Ədəbiyyat materiallarından bizə məlumdur ki, qədim insanlar dağların aşağı ətrafında gündəlik məişətlə bağlı təsvirləri, nisbətən yuxarı qalxdıqca mifik , simvolik, ovsun ayinləri və mərasimlərini təsvir edirlər. Ən yuxarıda isə müqəddəs ocaq yerləşir.

Biz Gəmiqayada da eyni süjetləri öyrəndikdən sonra vulkanik daşların yuxarısında silindirik formalı inanc yerləri aşkar etdik. Onun ətrafında qayalar çox sürüşkən və çətin keçilə bilən olduğundan min illərlə toxunulmaz qalmışdır. Bütün ətrafda daşlar pərakəndə dağıldığı halda, burada tam dairəvi formada daş

parçaları üst-üstə yığılmışdır. (Quyu formalı, içərisinə kiçik daşlar atılmışdır). Oxşar inanc yerlərinə və adətə Culfa rayonunun Camaldın kəndi yaxınlığındakı Alməmməd (Əli Məhəmməd, Ali Məhəmməd də deyirlər) piri ərazisində «Düymə quyusu» (Düyməli təndir) deyilən yerdə də rast gəldik. Burada niyyət edib yuxarıdan «Quyu» adlanan çalaya düymə atır və ya quyudakı (çaladakı) düyməni gətirib küflə kimi yerdən çıxarırlar.

V.P.Dyakonova yazır ki, tuvalılar dağların başında dağ ruhları üçün ovaa,oboo adlanan daş qalaqlarını silindrik və kümbəzvari formada düzəldirlər. Onun içərisinə kiçik daş qırıqları atılır. Dağa ilk dəfə qalxan hər bir şəxs bura daş atmalıdır.[57] Eyni inam digər türk xalqlarında da mövcuddur. Quzey İraqda Gurgur Baba ziyarəti və dilək daşı adlanan yerdə də bu inam var.[58]

Naxçıvanda, eyni zamanda Azərbaycanın digər bölgələrində, həmçinin Anadoldu, Sibir, Altay-Sayan bölgələrində bir sıra müqəddəs dağlar var ki, xalq onlara tapınır. Ümumiyyətlə dağ inamının kökü çox qədim dövrlərə gedir. «Bilqamıs» dastanından məlum olur ki, şumerlərdə çətinliyə düşən, yolunu müəyyən etməyi bacarmayan şəxs çıxış yolunu dağdan diləyir. Bilqamıs və Enkidu Humbabanı öldürməyə gedəndə bir sıra əməllər yerinə yetirməklə bərabər, hər dəfə eyni məsafəni dəf edirlər.

İyirmi mənzildən bir yola nişan qoydular,

Hər otuz mənzilədə bir düşərgə saldılar.

Altı həftə üç gündə Farat çayı göründü.
Günəş qarşısında onlar quyu qazdılar.
Bilqamıs dağa çıxıb ətrafa göz gəzdirdi,
«Dağ, mənə sən xeyirli yuxu gətir»-söylədi.[59]

Bu vəziyyət 6 dəfə təkrar olunur. Hər dəfə Bilqamıs yuxuda başlarına gələcəkləri və nə edəcəklərini görür.[60] Maraqlıdır ki, yuxunu Enkidu deyil, Bilqamıs görür. Çünki o, müqəddəsdir. Dastanda onun haqqında deyilir:

O, insandır, yarıdan çoxu tanrıdır ancaq,
Heç kəs ona tay olmaz, onun görkəminə bax.[61]

Dağ kultu ilə bağlı olaraq «Bilqamıs»-«Dədə Qorqud» paralellərinə rast gəlirik. «Salur Qazanın evi yağmalandığı boy»da Qazan xan Ala dağda ovda olarkən qorxulu yuxu gördü. Çapıb gəldikdə evinin yağmalandığını bildi.[62]

«Kitabi-Dədə Qorqud»da alqış deyərkən «Qarlı qara tağların yıqılmasun», ölüm, bədbəxliklə bağlı: «Qarşı yatan qara tağım yıqılıbdır» ifadəsi işlənir. Bamsı Beyrək 16 illik /ayrılıqdan/ dustaqlıdan qayıdıb gələndə Banuçiçək Beyrəyin atasına çapar getdi, dedi:

«Arab-Arğab qara tağın yıxılmışdı, ucaldı axır».[63]

Şumer-Dədə Qorqud paralelləri ilə bərabər dağ inamının günümüzdə də bir sıra türk xalqlarında qorunub saxlandığı məlumdur. Həmin inanclar genetik cəhətdən eynilik təşkil edir. Qədim türklər Tanrı dağları –Tyan-Şanı müqəddəs hesab

etmişlər. Ümumiyyətlə, Altay türklərinin inamına görə, ən böyük dağ ruhu Pustaq (Buzdağ)a aiddir. Rəvayətə görə, Ülgen bir müddət bu dağı özünə əsas yer seçmişdir. Canlıları burada yaratmağa başlamışdır. Ona görə də Pustaq- Ana Başı adlanır.[64]

Altayların, şorların, teloutların, tuvalıların və xakasların inamına görə hər bir dağın öz funksiyası var. Tarixi mənbələrə görə, hər dağın özünə məxsus qurbanı olurdu. Cinsi ilə bərabər qurbanlar rənglərinə görə seçilirdilər.

Dağ kultu qədim türklərin Yer- Su hami qüvvələrinə inam və tanrıçılıqla bağlıdır. Abdulkadır İnam bu kultla bağlı olaraq yazır: « Yer-Su ruhlarının ən önəmli təmsilçisi dağlardır. Şamanist türklərdə dağ kultu Göy Tanrı kultu ilə bağlı bir kult olmuşdur.Hunların qədim vətəni olan Yeni-Su-Şan, Şan-Din-Şan sıra dağlarındakı Han-Yoan dağı hunların hər il Göy Tanrıya qurban kəsdikləri dağdır. Hun xaqanları Çinlə bağladıqları müqavilələri Hun dağ deyilən bir dağın təpəsində qurban kəsərək, içdikləri andla təsdiqləyirdilər».[65]

Qədim türklərdə hər boyun, hər elin özünəməxsus müqəddəs dağı var idi. Yəni həmin dağa ziyarətə (ibadətə) ancaq məxsus olduğu boyun adamları gəlirdi. N.A.Alekseyev yazır ki, Altayda elə dağlar vardır ki, ancaq ayrı-ayrı nəsillərin (boyların) müqəddəs yeridir. Eyni zamanda elə dağlar vardır ki, onlar bütün boylar üçün müqəddəs dağdır.[66]

«Əshab-Kəhf» də olduğu kimi, Altay-Sayan türklərində də müqəddəs dağı ziyarət etmək üçün xüsusi hazırlıq görülür. Beltirlərin inamına görə, müqəddəs dağa-Tiqr dağa müəyyən yerə qədər minəklə gəlmək olar. Sonra piyada qalxmaq lazımdır. Əsas ibadət yerinə qadınlar və qızlar buraxılmır. (Son illərə qədər «Əshabi-Kəhf » dəki «Cənnət Bağı» na qadınların və qızların çıxması müşkül idi. Yəni bir növ təbbi qadağa qoyulmuşdur). İbadətdən sonra kəsilmiş qurban ətindən yemək hazırlayırdılar.[67] Naxçıvanda da bu adət var.

L.V. Çançibayeva yazır ki, Altaylarda bir sıra müqəddəs dağlar vardır ki,indi də orada ov etmək, heyvan otarmaq, ağac kəsmək yasaqdır. Yaşlıların dediyinə görə, bu dağlarda hər şey dağ ruhuna-«Elzi» yə aiddir. Qadınların belə dağlara getməsi məqsədəuyğün deyil .[68]

Başqırdlar bir sıra dağ və mağaralırı müqəddəs sayırlar.Dağ ruhuna «Tay eyəhə» mağara rühüna «Taş kıyış eyəhə» deyirlər. İ.İ.Lepexnin məlumatına əsaslanaraq S.J.Rudenko yazır ki, başqırdlar dağ ruhunu razı salmadan, yəni ona dediyi qurbanı, nəziri vermədən dağa çıxa bilməzlər.[69]

Məlum olduğu kimi, Naxçıvanda müqəddəs sayılan Gəmiqayda bir sıra heyvan təsvirləri mövcüdur. Eyni zamanda öküz təsvirlərinə rast gəlinir. Dağlarda, xüsusən dağ zirvələrində, aşırımlarda daş qalaqlanması, heyvan təsviri və ya heyvan fiquruna Mərkəzi Asiyanın bir sıra bölgələrində də rast gəlinir.

M.A.Devlet Tuvada aşkar edilmiş, üzərində öküz təsviri olan daşın dağ keçidində dağ ruhuna pərəstiş məqsədi ilə qoyulduğunu göstərilir. Müəllif belə daşların « Ovaa-Daş» adlandığını qeyd edir.

«Ovaa-Daş» sözünü izah edərkən daş sözünün rus dilində qarşılığını verir- « kamen». Lakin «Ovaa» sözünə izah verilmir . Müəllif Xayırakan (Tuva) dan aşkar edilmiş həmin daşın M.Ö.III minilliyə aid olduğunu göstərir.[70]

V.A.Alekseyev tarixi mənbələrə və etnoqrafik materiallara əsaslanaraq göstərir ki, « Ovoo» və ya «Ovaa» dağların başında, keçidlərdə olur. Çox vaxt «Ovoo» kupol formasında düzəldilir.İnama görə,»Ovoo» ya çatan hər bir şəxs dayanmalı, təzim edib oraya kiçik bir daş qoymalıdır. Təsvirdən aydın olunur ki, «Ovoo»nun içərsində bəxşiş edilmiş əşyalar, müəyən müqavvalar (gəlinciklər) və s. olur.[71]

Ovaa, oba ilə bağlı inamları yekunlaşdıraraq M.Seyidov belə qənaətə gəlir: «Obo ilə əlaqədar deyilənlərdən belə qənətə gəlmək olar ki, «Bel» dağın dar keçidində, dağ ruhu, dağ yiyəsi, dağ tanrısı, çevrə yiyəsi şərəfinə yapma şəkildə yığılmış daş yığınına da deyilir. Deməli , oba da, bel də dağ ruhunu, tanrısını,yiyəsini təmsil edir».[72]

Oxşar inam «Əshabi-Kəhf»də də mövcüdur. Zəvvarlar yolların kənarlarında daş qalaqlayır, ziyarətgahda isə müəyyən yerlərdə kiçik daş parçalarını üst-üstə yığılar. «Cənnət Bağı»,

«Cənnət Babı» adlanan silindirik formalı məqamda belə daş qalaqları var.

«Əshabi-Kəhf»ə gələn zəvvarlar inanırlar ki, müqəddəs ocaq onları düşməndən, xəstəlikdən qoruyacaqır. Dağların qoruyucu xüsusiyyətlərindən bəs edərək Əbdulkadır İnan türklər arasında rəvayətə əsasən yazır ki, çinlilər çox qorxduqları türklərin qüvvət və şövqlərinin mənbəyinin Kutlu Dağ olduğunu anlayaraq onları bu mənbədən məhrum etməyi düşünürdülər. Çin fağforu Kiyeliyen adlı qızını türk xaqanının oğluna verməyə, bunun müqavilində Kutlu dağı istəməyə qərar vermişdir. Yuluntəkin bu təklifi qəbul etmiş, çinlilər də bu qayanı parçalayaraq məmləkətlərinə daşımışlar. Bundan sonra türklər dağlardan, daşlardan, vəhşi heyvanlardan, südəmər uşaqdan: «köç-köç»-deyə kəsilməyən səslər eşitməyə başlamışlar. Bir anda bütün sular qurumuş yaşıllıqlar saralmışdır.[73]

Müqəddəs dağlar və mağaralar səmavi dinlərdə də mövcudur. Hz.Peyğəmbərimizə (s.ə.v.) ilk vəh Hira dağında gəlmişdir. Kainatın fəxri müşriklərin təqibindən Sivr mağarasına sığınmaqla xilas olmuşdur. Allahın hökmü ilə mağaranın girəcəyini hörümçək toru ilə tutmuş , girişdə göyərçin bala çıxarmışdı.

Hz. Musa (ə.s.) peyğəmbərə vəhin Turu-Sınada gəldiyi məlumdur. Hz.İbrahim (ə.s) peyğəmbərin Hz. İsmayıl (ə.s)ı qurbankəsmə mərasimi də dağda-Mina dağında baş verir.

Biz həmişə dağa, daşa müqəddəs kimi baxıldığını gördüyümüz halda, bəzən dağda hər hansı bədbəxt hadisə baş verirsə, dağı qarğımağa rast gəlirik: « Səni uçub tökülləsən», «Yolun bağlansın» və s. «Kitabi Dədə Qorqud»da Buğacla bağlı boyda Dirsə xan (atası) tərəfindən yaralanmış oğlunu axtarmaq üçün gələn anası oğlunu qan içində tapınca Qazılıq dağına qarğımağa başladı:

Nə Qazılıq tağı, aqar sənin suların,
Aqar kibi aqmaz olsun.
Bitər sənin otların Qazılıq tağı,
Bitər ikən bitməz olsun.
Qacar sənin keyiklərin, Qazılıq tağı,
Qaçar ikən qaçmaz olsun, taşa dönsün.[74]

Buğacın anası dağa həyatsızızlıq arzulayır. Çünki oğlunu həyatsız bilir. Lakin oğlu gözünü açıb bildirir ki, Qazılıq dağına qarğımasın, onun günahı yoxdur. Əsil suçlu atasıdır. Eyni zamanda bildirir ki, Hz. Xızır (ə.s.) onun üzərinə gəldi, yarasını sığallayıb dedi ki, bu yaradan sənə ölüm yoxdur. Dərmanı ana südü, dağ çiçəyidir.

Göründüyü kimi, Qazılıq dağının çiçəyi ana südü ilə birləşib Buğacı sağaldır.

«Əshabi-Kəhf»də mağara ilə bağlı inam xüsusi yer tutur. Yəni «Qurani-Kərim»in məlumatlarından aydın olduğu kimi,

mağara əvvəlcədən mövud imiş. Hələ zülmdən qaçanlardan çox öncə müqəddəs olduğuna görə ora sığınmaq məsləhət görülür.

Azərbaycanda dağlıq zonaların çoxunda müqəddəs mağaralar mövcuddur. Xalq arsında «mağara», «kaha», «zağa», «köhül» və s. adlarla tanınan «Pir Bənövşə» (Quba rayonu), «Diri Baba» (Şamaxı), «Ağ Kaha», «Qara Kaha» (Qubadlı) və s. tanınmış ziyarətgahlar-mağaralar vardır.

İsmayıl Oranlı türklərədə mağara kultundan bəhs edərək yazır ki, Çoban və köçəbə türkmən topluqlarında mağaralar və dağdakı oyuqlar kutsal qəbul edilərək «korunak» olaraq istifadə olunmuşlar. Yasaq olduğu dönəmdə ibadətlərini gizli olaraq mağaralarda əda etmişlər.[75]

Ziyarətdə daşla bağlı inamlar xüsusi yer tutur. Yol boyu daş qalaqlamaq, «Qitmirin qəbri» deyilən yerə daş qoymaq, düşmənin daşını atmaq, «Yeddi kimsənə»də daş yapışdırmaq, Düldülün ayaq izlərinə daş atmaq, Qara daşı ziyarət etmək, «Damcıxana» və «Cənnət bağı»nda niyyət edib daşları üst-üstə qoymaq, nəhayət, bəzi adamların niyyət edib buradan kiçik daş götürüb gətirməsi, niyyət qəbul olunduqdan sonra qurbanla birlikdə həmin daşın yenidən «Əshabi-Kəhf»ə qaytarılması inamı vardır.

Buradakı Qara daşla bağlı bir sıra rəvayətlər mövcuddur. Rəvayətlərdən birində deyilir ki, Ocaqtəpənin pirində yekə bir qara daş var. «Əshabi-Kəhf»də də ondan bir az xırda daş var.

Bunlar bacıdırlar. Cümə axşamı «Əshabi-Kəhf»dəki qara daş gəlir Ocaqtəpədəki böyük bacısını görüb qayıdır.[76]

Daşla bağlı inanclar «Əshabi-Kəhf»lə bərabər, Naxçıvan ərazisində bir sıra yerlərdə də yayılmışdır. Qara daşlara inam xüsusi yer tutur. Xalqın inamına görə, belə daşlar göydən düşməklə müqəddəsdirlər. «Yaycı kəndindəki pirdə qara daş var. Üstündə nal izi. Xızır peyğəmbər buradan keçəndə atı ayağını qoyub bu daşın üstünə.»[77]

Daş kultuna türklərin yaşadıqları bütün ərazilərdə rast gəlinir. Qədim türklər inanmışlar ki, Tanrıdan ulu babalarına müqəddəs daş -«Yada taşı» endirilmişdir.[78]

Sibir və Altay türklərində «sata», «dada», «yada taş», «kihi taaş» (adam-daş), «ehekeen taaş»( «baba taş») adları ilə tanınan belə daşlara çox böyük inam vardır.

Yakutların inamına görə, sata daşlar müxtəlif olurlar. Onların bir qurpu heyvanların və ya insanın mədəsindən çıxır. İldırım çaxması ilə düşən (daşlar) satalar mövcuddur. Buna "etinq sata" deyilir. [79]

Azərbaycan türklərində də bəzi heyvanların və quşların qarnında belə daşların olduğuna inanırlar.

«Ala, göy, sarı, qırmızımtıl və s. rənglərə çalan bu daşın hansı heyvanda olmasını əsasən aşağıdakı əlamətlə ayırd etməyə çalışırlar. Qarnında daş olan at dayanmadan çayı keçər, su içməz, otlayanda da başını daha çox şimala sarı tutar. Qamıda daş olan

öküz isə axşamüstü, bimafəsə, dalbadal 10-14 kərə böyürər. Qamında daş olan keçi tək otlar, sürüyə qarışmaz.»[80]

Y.A.Xudyakovun məlumatından aydın olur ki, "sata-dada-yada" adlanan belə daşlar daha çox qara rəngdə olurlar.[81] Həmin daşların köməkliyi ilə yağış yağdırmaq, havanı dəyişdirmək mümkündür.

Türklərin inamına görə, havanı dəişdirmək, yağış yağdırmaq daşını Nuh peyğənbər oğlu Yafəsə vermişdir.

«İslam müəlliflərinə aid olan rəvayətə görə, Nuh peyğəmbər Türküstanı oğlu və türkün babası Yafəsə verdiyi zaman o atasından bu quraq ölkədə nə edəcəyini soruşur. Atası da ona yağmuryağdırma qüdrətini bəxş edir və üzərində dua olan ( İsmi Əzəm ) yazılı bir daş verir. Ehtiyac halında bu yazılı daş ilə Allaha dua edərək yağmur yağdırırdı.»[82]

Toplanmış materiallar göstərir ki, Naxçıvanda "Əshabi-Kəhf"lə bərabər bir sıra ziyarətkahlarda qara daşlar mövcuddur. Cəhri kəndi ərazisində İsfəndiyyar və ya Qaş piri adlanan ziyarətgah mağara tiplidir. Girişi dar olsa da, bir neçə metr getdikdən sonra salonun ortasında böyük qara daş vardır. İnsanlar müxtəlif niyyətlə həmin ziyarətgaha gedirlər. Tarixi mənbələr sübut edir ki, XVIII əsrin əvvələrində burada böyük nüfuza malik olan İsfəndiyar zaviyyəsi olmuşdur[83].

Həmin ziyarətgahda bitki, daş kultu geniş yayılmışdır. Ziyarətə gələnlər qara daşa nəzir qoyur, daş yapışdırır, ətrafında

şamı yandırır, pirin qabağındakı kollara və kiçik tut ağacına çapıd bağlayırlar.

Naxçıvanın bir sıra kəndlərində axır çərşənbənin (ilaxırın) səhəri Nov başına çıxarkən çay və ya bulaqdan bir neçə xırda daş götürürlər. «Bərəkət daşı» adlanan belə daşları ərzaq saxlanan yerə, hətta bəzi kişilər pul kisələrinə qoyurlar.

Xalq arasında "ürək daşı" deyilən daşlarla ürək bulanması, ürək ağrılarını müalicə etməyin mümkün olduğuna inanırlar. Bunun üçün həmin daşı suya salıb xəstəyə içirirlər. Eyni zamanda, daşı xəstənin ürəyinin və mədəsinin üstündə gəzdirirlər.

Qara daşın müqəddəsliyi ilə bağlı bir neçə xalq deyimi mövcuddur. Pis övlad haqqında: "Sən doğulunca bir qara daş doğulaydı", "Qara daş səndən yaxşıdır" və s. deyilir.

Xalq arasındakı inama görə, qara daşların özlərinəməxsus xüsusiyyətləri vardır. Deyirlər ki, bu daşlar artıb çoxalmaq-doğmaq xüsusiyyətinə malikdirlər. Bəzi daşların 40-a qədər bala verdiyi söylənilir. "Sata-dalama-yada"nın çoxalmasından bəhs edərək N.A.Alekseyev yazır ki, bu daşların böyüməsi 30-40 il davam edir. Bəzən bu daşların "uşaqları"-kiçik daşlar olur. Çoxalma 40-gündən bir ola bilər. [84]

Daşın insan ruhunu daşımaq qabiliyyətinə malik olmasına dair çoxlu inamlar mövcuddur. "Əshabi-Kəhf"də düşmən daşını atmaq ona fiziki xətər yetirmək kimi sayılır. Bu inam bütün Azərbaycan üçün xarakterik olmuşdur. Azərbaycanda keçmişdə

arzu olunmayan adamın bir daha qayıtmaması üçün onun arxasınca qara daş atardılar. Daş atdıqca güya o adam geri qayıtmayacaqdır.[85]

Naxçıvanın bəzi kəndlərində mərhumu evdən çıxardıqdan sonra onun yatdığı yerə daş qoyurlar. Mərhum dəfn edildikdən sonra həmin daş həyətə atılır. Daşın qəbirstanlığa atılması adəti də vardır.

Şərur rayonunun Şahtaxtı, Culfa rayonunun Bənəniyar kəndlərində pirdə qara daş vardır. Kim niyyət edib həmin daşı qaldırırsa, deməli niyyət yerinə yetəcəkdir. Həmin adam deyir: "Daş, mənə quş kimi (yəni yüngül) gəldi".

İnsanlar arasında belə bir inam vardır ki, hər kəsin özünün daşı var. "Daşımı başına salma", "Mənim daşım ağırdır", "Mən daşdan yaranmışam", "Öz daşı öz başına düşsün" və s.

Dünya türkləri üçün xarakterik olan inama görə, insan daşa çevrilə bilər. Naxçıvanda daşa çevrilmiş insanlarla bağlı çoxlu rəvayətlər mövcuddur. Bu baxımdan bir oxşamaya diqqət yetirək:

Başına dönüm, döndərim,
Səni bazara göndərim
Sən bazardan gəlincə
Özümü daşa döndərim.

Deməli,insan inanr ki, daşa çevrilə bilər. İnsanın daşını çevirməklə onun xasiyyətini dəişmək olur. Yəni onun xasiyyəti

pisləşir, evdə dava-dalaş olur. Bu zaman deyirlər: "Elə bil daşı çevrilib". Tekcə insanların deyil, heyvanların daşını da çevirmək olar. Xüsusən duma qatarının səfi pozulanda deyirlər ki, kimsə daşlarını çevirib. Daşın sehirli qüvvəyə malik olmasını, onları qırarkən qığılcım verməsi ilə əlaqələndirirlər. Belə daşlar "dəmir daş" adlanır. Bir sıra qiymətli daşlardan bəzək əşyaları düzəldilir.

Əqiq, zümrüd, firuzə və s. daşlar müxtəlif xəstəlikləri, nəzərdəyməni, düşmənin xətasını sovuşdura bilir.

Deməli, "Əshabü-Kəhf"də dağ-daş və mağara inamı qədim tarixə malik olmaqla, genetik cəhətdən türklərlə bağlıdır.

## 2. SU KULTU

Əvvəlcədən deyildiyi kimi, ziyarətgah və onun ətrafında üç yerdə su inamı ilə qarşılaşırıq. Bunların biri təmizlənib müalicə olunma, ikincisi "Əshabi-Kəhf"in girəcəyindəki kiçik hovuz-bulaq. Bunun şəfaverici və müqəddəsliyini nəzərə alaraq içilir və xörək hazırlanır. Bulaq "Yeddi kimsənə"nin aşağı tərəfindən çıxdığı üçün daha da müqəddəs hesab edilir. Üçüncüsü-"Damcıxana"da dilək diləməklə istəklərin yerinə yetirilib-yetirilməyəcəyini bilmək üçün oturulan yerdə tavandan daman su.

"Əshabi-Kəhf"in aşağısında, keçmiş yaşayış yeri olan Haçaparağın yanında, on beş dəqiqə qaynayıb-köpükləyən, on beş dəqiqə enən mineral bulaq sehrli xüsusiyyətlərinə görə insanlar arasında müqəddəs sayılır. Bura müxtəlif xəstəlikləri olan adamlar gəlirlər. Xalq arasında belə bir inam mövcüddur ki, bulağın ən kəsərli vaxtı köpüklənmənin şiddətləndiyi dövürdür.

İlin bütün fəsillərində beləcə qaynayıb yatan bulaqda təkcə xəstələr deyil, bəzi zəvvarlar da yuyunub təmizlənirlər. Burada yuyunmaq ( çimmək ) ziyarətgah suyu ilə yuyunmaq hesab edilir. İnsanlar ziyarətə hazır olurlar. (Bir növ ziyarət qüsulu vermək). Qeyd edək ki, belə qüsul Həcc ziyarəti zamanı verilir və ehram geyilir. Yəni zəvvarlar ziyarətə həm mənəvi-psixoloji, həm də fiziki cəhəddən hazır olurlar.

Araşdırmalar göstərir ki, su ilə bağlı inanclar çox qədim dövrdən mövcud olmaqla, bir sıra türk xalqları arasında geniş yayılmışdır.

Bu gün Azərbaycan türklərində səfərə gedən adamın dalınca su atmaq adəti vardır. İnama görə, su aydınlıqdır, gedilən yerdə hər şey yaxşı olacaqdır. Eyni inanca qədim şumerlərdə rast gəlirik. Bilqamıs və Enkidu ağır bir səfərə-Humbabanı öldürməyə gedərkən Bilqamısın şah anası Ninsu ( bu adın ikinci tərəfindəki su maraqlıdır ) qayğılanır:

**Nunsu dönüb özünü aramxanaya saldı**
**Sabunlu köklər ilə bədənini yudu o.**
**Öz qamətinə layiq gözəl paltar geydi o,**
**Sinəsinə yaraşan boyunbağı da asdı.**
**Belinə qurşaq vurub, başına tac qoydu o,**
**İgidlərin ardınca bir cam təmiz su atdı,**
**Pillələrə çıxıb o evin damına qalxdı.**
**Qalxıb tərif dedi o,**
**Şamaşın şərəfinə,**
**Əlini göyə tutdu, un qurban qoydu o,**
**Şamaşın şərəfinə.** [86]

Diqqət yetirsək, dua etmək, nəzir verib xoş arzu diləmək üçün Bilqamısın anası xüsusi bitki ilə yuyunur, gözəl geyinir. Sonra igidlərin ardınca təmiz su atıb duasının qəbul olunması üçün yüksəkliyə-evin damına qalxıb əllərini Tanrıya uzadıb un nəzir deyir.

Un nəziri ( qurbanı ) ilə bağlı inam indi də Naxçıvan ərazisində qalmaqdadır. Əgər bir nəfər müəyyən bir xəta ilə üzləşib yaxşı qurtararsa, deyirlər ki, isti çörək yapıb (bişirib) paylayın. Həmçinin, övladının xətaya düşdüyünü eşidən ana deyir ki, Allah, balam bu bəladan qurtarsın, filan çəkidə unun çörəyini yapıb paylayacağam. Xətadan yaxşı qurtaranlar haqqında deyilən "bir parça çörəyiniz ovsanata düşüb"ifadəsi də həmin inamla bağlıdır.

Qədim türklərin suya tapınmaları yer-sub // yersu ilə bağlıdır. Qədim türk yazılı abidələrində Göy Tanrı ilə bərabər, Yer-Sunun adı çəkilir. Bəzi müəlliflər Yer-Sunu tanrı kimi təqdim etməklə, Yer-Su tanrısı olduğunu irəli sürmüşlər. Lakin mətnin rusca tərcüməsində Yer-Su tanrı kimi getməmişdir: "Vverxu Nebo tyurkov i svyaşennaya Zemlya -Voda tyurkov tak skazali: «Da, ne poqibnet narod tyurkskiy, narodom pust budet"[87] Yuxarıda Türklərin Göyü (Göy tanrı H.Q) və türklərin müqəddəs Yer-Susu belə dedilər: "Bəli, türk xalqı yox olmasın, xalq olsun".

Qədim yazılı mətin belədir: "Üze türk tengrisi, ıdık yiri-subı ança itmiş erinc. Türk bodun yok bolmazun tiyin, bodun bolçun tiyin..."

Hər iki mətində tanrı ancaq birdir. S.P. Malovda Yer-Su müqəddəsdir ( svyaşennaya) . Mətinin orijinalında isə "ıdık yiri-subı"deyilir. Deməli, Yer-Su tanrı deyil, müqəddəsdir (ıdıkdır).

Bir sıra müəlliflər isə Yer-Subu vətən mənasında da işlədirlər. Eyni fikir S.P.Malovda da vardır. [88]

Tanınmış mifoloq-alim Mirəli Seyidov Yer-Sunu tanrı kimi təqdim edir.[89] Yuxarıda dedik ki, bu yalnışdır.

Görkəmli türkoloqlar Z.Gökalp [90], A.İnan [91], B.Ögəl[92], E.Esin [93], Potapov L.P. [94], və başqaları Yer-Sunu ruh kimi vermişlər.

Bir sıra müəlliflər isə Yer-Sunu vahid ruh adlandırırlar. Yəni yerlə sunu birləşdirirlər. "Ak tosun Altay dağlarında yerin əsas ruhu Çeri-su yaşayır. Çeri-suya ildə üç dəfə boz, ağqoyun, kımız və süd qurban verilir"[95].

N.V.Anoxinə görə, yer-su, torpaq və su ruhudur.[96]

Göy Türk tarixinin araşdırıcısı Saadetdin Gömeç yazılı kitabələrdəki il // el kəlməsini, həmçinin, yer-sub //yer-su ifadəsini araşdıraraq yazır: "Kitabələrdə keçən "il"kəlməsinin dövlət və ölkə mənaları ilə bərabər, dəyişik anlamları var isə də, bizim baxışımıza görə, indiyə qədər bir yanlış anlama nəticəsi olaraq yer-sub ruhları şəkilində çevrilmiş olan yir və yir sub deyimi özəlliklə ölkə, torpaq parçası mənasında işlənmişdir. Göy türkcə kitabələri diqqətlə tədqiq etsək, yir və yir-sub deyiminə tez-tez rastlanacaqdır.

Fəqət nə qədər zorlanırsa-zorlansın, yir-subun yer-su ruhları olduğuna dair bir iz tapmaq mümkün deyildir.»[97] Müəllifə görə, vətən ifadəsi bəzən "Tengri-yir" kimi işlənmişdir. Yəni vətən müqəddəsləşdirildiyi kimi, onun torpaq və suyu da müqəddəsləşdirilmişdir.

S.M.Abramzon Cənubi Qırğızıstanda quraqlıqla bağlı əhalinin yığılıb dua etməsi və qurban kəsməsi adətinin («kudayı» ) Yer-Su ilə əlaqələndirir.[98]

Bu inanc Naxçıvanda quraqlıq zamanı "müsəllə"yə çıxıb qurbankəsməyə uyğun gəlir. Bu isə yerə suyun çağırılması, onların birləşdirilməsidir.

Deməli, yer-su bütövlük mənasında işlənməklə, müqəddəsləşdirilmişdir. Məlumdur ki, hər bir qaynaq, çeşmə,torpğa-yerə bağlıdır. Dağlar isə çeşmə və bulaqların mənbəyi hesab olunur. Ona görə də qədim türklər yer və su hamilərinin daha çox hündür dağların başında, müqəddəs sayılan məqamlarda yerləşdiyini söyləyirdilər.

Suyun müqəddəsliyi insanın və bütün canlıların həyatında böyük rol oynaması ilə bağlıdır. Ziyarətgahlardakı bulaqlar və su mənbələri daha da müqəddəs sayılırlar.

Öncədən demişdik ki, zayarətgahın cənub tərəfində yerləşən mineral bulaq möcüzəli sayılmaqla, ondan sağlamlıq məqsədi ilə istifadə edirlər. Qarşılıqlı müqayisələr göstərir ki, Sibir və Altay türklərində də mineral bulaqlara böyük inam vardır. Onların düşüm tərzinə görə, suyun özünəməxsus ruhu vardır. Həmin ruh incidiləndə su insanlara zərər verə bilər. Xüsusən "arjan" adlanan mineral sulara böyük inam var. Tuvalılar inanırlar ki, arjan insanları xəstəliklərlə bərabər, bir sıra xoşagəlməz hallardan da qoruyur.[99]

Naxçıvan ərazisindən topladığımız materiallara əsasən, mineral sularda yuyunmağın ən əlverişli vaxtı yazda və yayın ortasına qədərdir. Xalq arasında belə bir inam vardır ki, «Quyruq doğan»dan sonra, yəni yay yarı olanda ( 5 avqust ) mineral sular kəsərdən düşür. Payızda ağacların yarpaqları saraldıqdan sonra su yenidən öz kəsərini bərpa edir.

Maraqlıdır ki, eyni inam Altay türklərində də vardır. "Arjan"a getməyin ən gözəl vaxtı: yazda ağacların yarpağı yaşıllışanda (kök bür ), həmçinin, payızda ağacların yarpaqları saralanda (sarı bür). [100]

Azərbaycanda su ruhları "su yiyəsi" ( əyəsi ) adlanır. Naxçıvan ərazisindən toplanmış mifoloji materiallarda hər şeyin: dağın, bağın, yolun yiyəsi olduğu göstərir. "Bu əyələrin içində hamısından üstünü su yiyəsidir. Səhər-səhər ki, tezdən gedirsən suyun üstünə, gərək su yiyəsinə salam verəsən. Heç vaxt suya tüpürmək, suya çirkab atmaq olmaz. Yoxsa su yiyəsini küsdürərsən, sənə zəfər toxuyar."[101]

Suda yiyələrlə bərabər, bəd ruhlar özündən yeylərlə bağlı inamlara görə, onlar insana zərər verirlər. Xüsusən gecələr qorxulu olurlar.

Hal anası ilə bağlı inama görə, o, zahı qadının ciyərini çıxarıb yaxındakı çayda və ya çeşmədə suya çəkib yeyir. Ona görə də belə vəziyyət olduqda deyirlər ki, tez yaxınlıqdakı suyu qılıncla kəsin. Yəni çayın başına gələn adam xəncərlə suya vurub deyir. "At kafər, aparma. Qaytar ciyəri". [102]

Suyun müqəddəsliyi, hətta onunla təmas qura bilmək inamı geniş yayılmışdır. Sudan dilək diləmə, pay alma ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Nağıllarda suyun insanla danışması, suyun yatması çərşənbə gecəsində xüsusi möcüzəyə malik olması və s. inamı vardır.

Xalq arasında olan inama görə, çərşənbə gecəsi sular dayanır: "Bir arvad çərşənbə gecəsi səhərə çox qalmış səhəngi götürüb çaya su dalınca gedir. Səhəngi nə qədər basır, səhəng suya batmır. Sən demə su yatıbmış. Arvad qayıdıb evə gəlir. Sonra birdə gedir. Görür ki, su şırha-şırla axır. Səhəngi doldurub qayıdır. "[103]

"Kitabi-Dədə Qorqud" dastanında su ilə bağlı inancların daha arxaik formasına rast gəlirik.

Qazan xan evinin yağmalandığını gördükdə izi ilə gedərkən qabağına su çıxdı. Qazan aydır: "su həq didarını görmişdir. Bən bu suya xəbərləşim " –dedi.

Cıqnam-cıqnam qayalardan çıqan su !
Ağac gəmiləri oynadan su !
Həsən ilə Hüseynin həsrəti su !
Bağ və bostanın ziynəti su !
Ayşə və Fatmanın nigahı su !
Şahbəz atlar içdigi su !
Qızıl dəvələr gəlib keçən su !
Ağ qoyunlar gəlib çevrəsində yatdığı su !

Ordumun xəbərini bilirmisin, degil mana,
Qara başım qurban olsun suyum, sana ![104]

Mətindən görünür ki, Qazan xan suya başını qurban deyir. Dastanda oğul-övladı olmayan ananın nəzir-niyaz verdiyi məlumdur.

Quru-quru çaylara su saldım
Qara tonı dərvişlərə nəzir verdim.
Ac görsəm toyurdum, yalıncıq görsəm- tonatdım
Dəpə gibi ət yiqdım, göl gibi qımız sağırdım
Dilək ilə bir oğul güclə buldum![105]

Mətindən suyu kəsilmiş çaya su buraxılmasının çox böyük savab olduğu görünməkdədir. Yəni suya tapınma niyyətin hasil olması üçün suya qurban verme ilə bağlıdır. Bir sıra türkdilli xalqlarda doğmayan qadının qurumuş çaya, eləcədə adicə suya qurban kəsib ona tapınması adəti olmuşdur.[106]

Mifoloji baxımdan diqqətimizi çəkən məsələlərdən biri Dəli Domrulun bir quru çayın üzərinə bir körpü tikdirməsidir. Maraqlıdır ki, keçəndən 33 ağça alır , keçməyənin gətirib zorla keçirir. Döyə-döyə 40 ağça alır. Yəni hamı körpüdən keçməlidir. Çayı isə körpüdən su olanda keçərlər. Quru çayın harasından gəldi keçirlər. Deməli, Dəli Domrul çayı sulu görmək arzusundadır. Bəlkə körpü də bir qurbandır. Çaya su gətirmək istəyidir.

Suyun insana yenilməzlik verməsi inamının bariz nümunəsini "Koroğlu" dastanında görürük .

"Günlərin bir günü Alı kişi Rövşəni yanına çağırıb dedi:

- Oğul, buradakı dağların birində bir cüt bulaq var. Adına Qoşabulaq deyirlər. Yeddi ildən yeddi ilə, cümə axşamı məşriq tərəfdən bir ulduz, məğrib tərəfdən də bir ulduz doğar. Bu ulduzlar gəlib gölün ortasında toqquşarlar. Onlar toqquşanda Qoşabulağa nur tökülər, köpüklənib daşar. Hər kim Qoşabulağın o köpüyündə çimsə, elə qüvvətli bir igid olar ki, dünyada misli-bərabəri tapılmaz. Özünün də səsi elə güclü olar ki, nərəsindən meşədə aslanlar ürkər, quşlar qanad salar, atlar, qatırlar dırnaq tökər... İndi yeddi il tamam olhaoldur. Vədə çatıb, get axtar, Qoşabulağı tap. Ancaq köpüyündən bir qab da doldurub mənə gətir" [107].

Dastandan məlum olur ki, Rövşən axtarıb Qoşabulağı tapır. Deyilənlər baş verir. "...Ulduzların toqquşmasından Qoşabulaq daşdı. Ağ köpük adam boyu qalxdı. Rövşən köpükdən bir qab doldurub başına tökdü, bir qabda doldurub içdi. Təzədən bir qab doldurmaq istəyəndə baxdı ki, ey dadi-bidad... Köpük hayanda idi"[108].

Burada maraqlı bir cəhət var. Rövşən atasına su götürə bilməyib, pərişan halda qayıdarkən Alı kişi deyir:- mənim gözlərimin dərmanı o köpükdə idi. O da ki, ələ gəlmədi. Görünür, bir də səni görmək mənə qismət deyilmiş. Day mənim əcəlim tamamdır.[109]

Bu ifadələrdən görünür ki, Qoşabulağın köpüyü hər şeylə bərabər, xəstəliyi sağaltmaq, həmçinin insana həyat bəxş etmək qüdrətinə malikdir. Çünki Alı kişi köpüklü su gətirilmədikdən sonra "day mənim əcəlim tamamdır"-deyir.

Yuxarıdakı parçadan aydın olur ki, burada bir neçə mif birləşmişdir. Ağac mifi (bulaqlar-ağacın altında), kosmoqonik (ulduzlar), zaman (yeddi ildən bir). Ulduzların toqquşması ilə nurun tökülməsi. Bununla səmavi ruhlarla , ağac və su ruhlarının birləşib köpüklənməsi.

Digər tərəfdən qədərə inam, vaxtı çatanın getməsi, gələcək qəhrəmanın bütövləşməsi, ona ilham olunması

( sudan sonra Rövşənə şairlik-aşıqlıq verilmişdir ).

Yəni göydən düşmüş daşdan-ildırım parçasından hazırlanmış Misri qılınca, dəniz ayğırından törəmiş Qırata malik olan Rövşən bu üstünlükləri də qazanır. Bütövləşir, Koroğlu olur.

Deməli, Koroğlunun Koroğlu olmasında ildırım, dağ, daş, ağac, su və at kultu başlıca rol oynayır.

Dastanda bulağın müəyən vaxta köpüklənib qalxması "Əshabi-Kəhfi"in aşağısındakı mineral bulağın dəqiq zaman içərisində köpüklənib (qaynayıb) qalxması və eyni vaxt ərzində aşağı düşməsi (enməsi) ilə müəyyən bir oxşarlığa malikdir.Sadəcə orada hadisə yeddi ildən bir baş verməklə daha güclü təsirə malikdir. Burada isə hər 15 dəqiqədən bir.

Azərb. MEA akad. H.M.Abdullayev adına Naxçıvan Regional Elmi Mərkəzinin əməkdaşı Sevda Əliyeva söyləyir ki,

Şuşada Turşsu adlanan yerdən bir az aralı ziyarətgah var. Bu, Turşsunun möcüzəsi ilə bağlıdır. Çünkü bulaq hər gün axşamüstü saat 16-30-dan 17-dək ağ köpüklü fəvvarə vuraraq 3-4 metrə qədər yuxarı qalxır. Gətirilən qurban bulaqdan aralı kəsilir.

Naxçıvanda su ilə bağlı inamlara ilin axır çərşənbəsi ( İlaxır ) və Novruzda əməl edilir. Qeyd edək ki, bütün Azərbaycan ərazisində çərşənbələrdən biri su ilə bağlıdır (Su Çərşənbəsi). İnama görə, həmin çərşənbədə suların tərkibi dəyişir, oyanır, yeraltı sular qalxmağa başlayır.

İlin axır çərşənbəsi səhər gün çıxmamışdan qabaq bütün ayaq tuta bilən insanlar, eyni zamanda, mal-heyvan çeşmənin, çayın başına gəlir ( buna bəzən kəndlərdə Novbaşı deyirlər). Hamı suyun üstündən 3 dəfə o tərəfə-bu tərəfə atılır və deyir: "Ağırlığım, dərdim-bəlam tökülüb suya axsın" («Ağırlığım, dərdim-bəlam, tökül bu suyun üstünə»).

Çeşmədə yuyunurlar, qadınlar çaydan xırda daşlar götürürlər. İlaxır suyu doldururlar. Həmin su gətrilib gələn ilin ilaxırına qədər xamraya qatılır, uşaqların boğazı gəldikdə onunla ovulur. Suyun növbəti çərşənbəyə qalanını bar ağacının dibinə və ya götürülmüş bulağa töküb yenidən doldururlar.

Əvvəllər novbaşında (bulaq üstündə) cavanların çiləşməsi olmuşdur. Bu yüngül zarafat mahiyyəti ilə bərabər, təmizlənmədir. Çünki sulaşmada ancaq bulaq çeşməsinin suyu istifadə edilir. Bu inanca Anadolu türkləri arasında, Novruz bayramında bizdə olduğu kimi, səhər tezdən əməl olunur. İnama görə, bu su ilə

keçən ildən qalan pisliklər, ağırlıqlar , uğursuzluqlar və xəstəliklər yuyulub gedir .[110]

Novruzda su falı, natəmiz qadının başına 40 qaşıq su tökməklə təmizləmə, qırxaçar camına su töküb çilləkəsmə, başı açıq su içməmək, isti suyu yerə atmamaq, qorxmuş uşağa 7 cəftəni suya çəkib vermək və digər bu kimi inamlar qədim türklərin su kultu ilə bağlıdır.

Yuxarıdakılardan bu qənaətə gəlmək olar ki, "Əshabi-Kəhf'də su ilə bağlı adətlər və inanclar, ümumitürk inamlar pantionuna aid olmaqla, ona çox qədim dövrlərdən əməl olunmuşdur.

# 3. AĞAC KULTU

Naxçıvanda mövcud olan inama görə, hər bir əşyanın və ya canlının sahibi vardır. Buna "yiyə" deyilir. Heç təsadüfü deyildr ki, alət xarab olduqda, işə yaramadıqda və ya heyvan ziyanlıq etdikdə yiyəsinə qarğayırlar. Toplanmış materillar sübut edir ki, xalq inamına görə dağın, daşın, suyun, ağac və kolların da sahibi vardır.

Həmin inamın paralellərini araşdırarkən məlum olur ki, Sibir və Altay türklərində də eyni inanc mövcuddur. Bu, yakutlarda "iççi' , digər türk xalqlarında "eçi' , "yeçi" , "yeyə"(bizdəki kimi) adlanır.[111]

Ağac kultunu araşdırarkən bir sıra məsələlərlə yanaşı, "Əshabi-Kəhf" də və digər ziyarətgahlarda ətrafdakı ağac və kollara parça bağlanmasının mənasını və genezisinin öyrənilməsinə xüsusi diqqət yetirilmişdir. Müqayisəli araşdırmalar göstərir ki, bu inanc digər türk xalqlarında, o cümlədən Anadolu türklərinədə də mövcuddur. Yəni bir sıra ziyarətgahlarda ağac və kollara bez, parça bağlama adəti vardır.[112] Görkəmli araşdırıcı Y.Kalafat: "Ayrı-ayrı iyelerle bərabər, bu inamın ağac (meşə) yiyəsi / / iyəsi ilə bağlı olduğunu söyləyir." [113]

Oxşar olaraq Sibir və Altay xalqlarında ağaclara bez, parça bağlama ağac yiyəsini ( iççi ) razı salmaq üçündür. Bu, ağac ruhuna qurban xarakteri daşıyır. Yakutlarda ağaca bağlanan bez və ya parça "sarama" adlanır. Ağacı da insan kimi canlı hesab

edən yakutlar ona alqışlar söyləyirlər. Oxşar alqışa və insanın ağacla təmas qura bilməsinə "Kitabi-Dədə Qorqud" boylarında rast gəlirik. "Salur Qazanın evinin yağmalandığı boy"da kafərlər Uruzu asmaq üçün ağacın yanına gətirərkən deyir: "Mərə kafər aman. Tanrının birliginə yoqdır güman. Qoyun, mən bu ağacla söyləşəlim."

Ağac ! Ağac ! Dersəm sana ərinmə ağac!
Məkkə ilə Mədinənin qapusı ağac !
Museyi-Kəlimin əsası ağac !
Böyük-böyük suların köprisi ağac !
Qara-qara dənizlərin gəmisi ağac !
Şahi-Mərdan Əlinin Düldülinin əyəri ağac !
Zülfüqarın, qınilə qəbzəsi ağac !
Şah Həsənlə Hüseynin beşigi ağac!
Əgər ərdir, əgər övrətdir, qorxısı ağac !
Başın ala baqar olsam, başsız ağac !
Dibin ala baqar olsam, dibsüz ağac !
Məni sana asarlar götürməgil, ağac !
Götürcək olursan, yegitligüm səni tutsun, ağac !
Bizim eldə gərək idin ağac !
Qara hindu qullarıma buyuraydım,
Səni para-para toqrylardı ağac ![114]

Məlumdur ki, ağac hər yer üçün qapı, hamı üçün beşik, yəhər və ya qılınc qəbzəsi, qını ola bilər. Lakin bu ağac ən kutsal ağaca bərabər tutulur. Çünki islamın iki müqəddəs şəhərinin

qapısı Musa peyğənbərin ( ə.s. ) əsas möcüzəsi hesab edilən əsası, İslamda möminlərin mövlası, Allahın Aslanı, Əhli-Beytin atası Hz.Əlinin mifik gücə malik Düldülünün yəhəri, Zülfüqarının qını, qəbzəsi, Peyğənbər balaları, Əhli-Beyt seçkinləri İmam Həsənlə İmam Hüseynin beşigi adlanır.

Dastanda ağac insan həyatının simvolu kimi verilir. Oğulun, qardaşın ölümü, düşmən əlinə keçməsini uca dağın yıxılması, qaba ağacın kəsilməsinə bənzədirdilər. Bamsı Beyrək dustaqlıqdan qayıdıb tanınmaz qiyafədə bacıları ilə görüşüb, onların ağlayıb-sızıldadıqlarının səbəbini soruşduqda bacısı deyir:

Qarşu yatan qara tağım yıqılubdır,
Ozan,sənin xəbərin yoq,
Kölgəlicə qaba ağacım kəsilübdir,
Ozan, sənin xəbərin yoq.
Dünyəlikdə bir qardaşım alınubdır,
Ozan, sənin xəbəri yoq.
Çalma ozan, ayıtma ozan. [115]

Məlum olduğu kimi, hər ağaca qaba ağac deyilməz. Uruz söyləşdiyi ağaca ancaq ağac kimi baxır. Sanki qaba ağac Uruzun özüdür. Eynilə Beyrək də ailəsinin, bacılırının yeganə oğlu, qardaşı olduğundan Qaba ağacdır. Ailədə iki və ya da çox oğul (qardaş) olduqda bunlar Qaba ağac deyil, onun budaqları adlanırdı.

"Uşun qoca oğlu Səkrək boyu»nda Səkrək qardaşı Əkrək haqqında eşitdiklərini və sağlığını anasına bildirincə anası dedi:

Qaba ağacda tal-budağın qurımışdı

yaşarıb gögərdi axır. [116]

Deməli, Əkrək Qaba ağacın şah-tal budağıdır. Çünki o, yaşca böyükdür, bir budaq da Səkrəkdir.

Ağac inamı ilə bağlı maraqlı məsələlərdən biri də Basatın:

Anam adını sorar olsan,-Qaba Ağac !

Atam adını dersən,- Qağan Aslan [117]

Məlumdur ki Aruzun oğlu Basat körpə ikən düşmən hücumu zamanı itir. Onu Aslan aparıb bəsləyir. Buna görə də atasının adını Qağan Aslan deməsi məntiqə uyğundur. Lakin Qaba ağac mifik təfəkkürlə bağlıdır !

Oğuz xaqanın həyatı ilə bağlı rəvayətdən məlum olur ki, onun iki xatundan 6 oğlu olur. Birinci xatunla bağlı rəvayətdə deyilir ki, Oğuz xaqan bir yerdə Tanrıya yalvarmaqda idi. Qaranlıq çökdü və göydən bir göy (mavi) işıq düşdü. Günəşdən, aydan daha parlaq bir işıq. Oğuz xaqan baxdı ki, işığın ortasında bir qız oturmuş. Oğuz qızla evləndi. 3 oğlu oldu. Adlarını Gün, Ay, Ulduz qoydu. [118]

İkinci xatunla bağlı rəvayətdə isə Oğuz ov zamanı gölün ortasında bir ağac görür. Ağacın koğuşunda mavi gözlü, çox gözəl bir qız. Onunla evləndi. Oğuz xaqanın ondan üç oğlu oldu. Bunların adlarını Göy, Dağ, və Dəniz qoydular.[119] Bu rəvayətlə bağlı inam "Kitabi-Dədə Qorqud"dakı "Anam adını sorar olsan Qaba Ağac" ifadəsi ilə genetik cəhəddən bağlıdır. Yəni türk ağacı ana saymışdır.

"Kitabi-Dədə Qorqud"da olduğu kimi, qədim şumer dastanı "Bilqamıs"dastanında da ağac kultu əsas yer tutur. Ümumiyyətlə, dastanda Bilqamıs və Enkidunun əsas məqsədləri sehrkar Humbabanı öldürüb Sidir meşələrindən ağac kəsməkdir. Onlar Humbabanı öldürüb bütün dağlara, meşələrə rahatlıq verirlər. Lakin bu iş, xüsusən sidirlərin kəsılməsi Allahlara xoş gəlmir. Enkidu ölüm girdabına düşür. Enkidu Bilqamısa deyir:

Ağac qapı ucundan bu bəlalar üz verdi,
Enkidu nəzər salıb qapıya göz yetirir.
Adamla danışantək onunla söhbət edir. [120]

Ağacın müqqədəsliyi Orta Asiya ərazisindəki türk dastanlarında da yayılmışdır. [121]

Görünür ki, türklər ağaca ana, məhsuldarlıq rəmzi kimi baxırlar. Heç təsadüfi deyil ki, dünyanın bir sıra xalqlarında həyat ağacı adlanan müxtəlif mifik ağaclar mövcuddur. Təsəvvürlərə görə, həmin ağac insana əbədi həyat bəxş edir, xəstələri sağaldır. Onların meyvələri, budaqları və yarpaqları şəffavericidir.

Qədim təsəvvürlərə görə, ağacın müqəddəsliyi onun yeraltı və yerüstü həyata malik olmasındadır. Yəni torpaqda olan hissə-köklər yeraltı dünyaya məxsus olmaqla ölümü, yerüstü hissəsi isə bu dünyanı, yeniləşməni, yaşamı təmsil edir.

Sibir türklərinin inamına görə, yer kürəsinin tam ortasında bir müqəddəs ağac var. Bu,Tanrıya qədər yüksəlir. Babalarımız Ötürkən Yışımərkəz hesab etdiklə-rindən həmin ağacın orada olduğunu düşünmüşlər. Yerlərdəki müqəddəs hesab edilən

qayın,ardıc və s. ağac-lara sayğı həmin ağaca və Tanrıya sayığı hesab edilir. [122]

Mirəli Seyidov dünya ( həyat ) ağacının daha çox dağın başında yerləşdiyini göstərir: "Dünya ağacları adətən dağın təpəsində, qayanın başında, yanında bitərmiş. Bununla da əski insan dağ inamı, dağ tanrısı (yiyəsi– H.Q,) ilə ağaca inamı, dünya ağacına inamı birləşdirib daha güclü inam yaratmaq istəmişdir". [123]

Həyat ağacı ilə bərabər Azərbaycan türklərinin inamlar sistemində həyat meyvəsi də əsas yer tutur. Nağıl və dastanlarımızda həyat meyvəsi, sağlamlıq simvolu olaraq alma götürülür. "Məlikməmməd" nağılında padşahın bağında bitən cavanlıq alması və onunla bağlı hadisələrdən bəhs olunur. Nağıllarda dərvişin və ya müqəddəs bir adamın alma verməsi ilə sonsuzluqdan qurtarmaq olur. Bir qayda olaraq alma verən deyir ki, aparıb böl, bir üzünü özün, bir üzünü xanımın yesin. Bundan sonra uşaq doğulur. Bəzən almanın qabığı ata verilir. Bu qabıqdan gələcək qəhramanın atı doğulur.

Maraqlı məsələlərdən biri "Əshabi-Kəhf"dəki ağac və kollara müxtəlif parça, bez qırıqları bağlanması ilə bağlı inamın genezisini müəyyənləşdirməkdir.

Qeyd edək ki, Naxçıvan ərazisində təkcə "Əshabi-Kəhf"də deyil, bir neçə ziyarətgahda ətrafdakı ağac və kollara əsgi bağlama inamı vardır. Alməmməd ( Camaldın kəndi yaxınlığında ) pirində Düymə Quyusu adlanan ziyarətgah yerinin yanındakı armud ağacına, Tənənəm kəndindəki "Pir Süleyman" türbəsindəki

qaraçalı koluna, həmçinin "Salatın piri" adlanan qaraçalı koluna, Ərəfsə pirinin ətrafındakı kola və s. əsgibağlama adəti vardır.

Müqayisəli araşdırmalar göstərir ki, bu inam dini baxışlarından aslı olmayaraq bütün türk xalqları arasında yayılmışdır. Türklərin qədim din və inanclar sisteminin tədqiqi ilə məşğul olan görkəmli araşdırıcılar N.A.Alekseyev, A.B.Anoxin, L.P.Potapov, L.Y.Çançibayeva, Əbdülqadir İnan və başqaları bunu qədim türklərin təsəvürünə görə, ağacları canlı hesab etməklə, onların hami ruha (yiyə) malik olması inamı ilə əlaqələndirirlər. Alekseyev N.A. yazır ki, bu yiyə ruhuna qurban verməkdir.[124]

Qədim türklərin təfəkküründə ağac və meşə insan həyatına mühüm təsir edən müqəddəs varlıqdır. Türklər onları, yəni yiyələrini məmnun etdikcə səadətin artacağına, bolluq, bərəkət olacağına, firavan yaşayacaqlarına inanırdılar.[125]

Araşdırmalar göstərir ki, hər ağaca parça bağlanmaz. Ancaq müqəddəs yerlərdə, dağ keçidlərindəki ağaclara (hətta ağacın növü də məlum olmalıdır) bağlanır. S.İ.Rudenkonun məlumatına görə, başqırdlar dağ ruhları üçün zirvələrdəki ağac və kollara parça bağlayırlar. Bu, "səprək" adlanır.[126] Yakutlar buna "salama", "sarama", altaylar "salam", "yalama" deyirlər.

Ağaclar müqəddəsliyinə görə, fərqlənirlər. Sibir və Altay türklərində qayın, ardıc ağacları, Orta Asiyada ağcaqayın, dağdağan və çinar müqəddəs hesab edilir.

"Əshabi-Kəhf"də isə dağdağan ağacı müqəddəs sayılır. Qeyd edilməlidir ki, keçən əsrin 80-cı illərinə qədər burada çox sayda dağdağan ağacı var idi. Ziyarətə gələnlər onların meyvələrindən yığıb müxtəlif xəstəliklərdə dərman kimi istifadə edərdilər. Dağdağandan hazırlanmış muncuq (həmayil) gözdəymədən və müəyyən xəstəliklərdən qorunmaq üçün kiçk uşaqların paltarlarından və ya boynundan asılardı. Xalq arasında olan inama görə, dağdağan ağacını qırmaq olmaz. "Dağdağan ağacını qırmazlar. Çünki adama qarğış eyləyir. Bu qarğışın altından çıxmaq da çox çətindir. Əgər qırmısansa, gərək üstündən asasan ki, sənə göz dəyməsin."[127]

Oxşar inam türkmənlər arasında da yayılmışdır. Q.P.Vasilyeva yazır ki, gözdəymədən qorunmaq üçün ən güclü təsir edən həmayil dağdağan ağacından hazırlanardı. "Dağdağan" adlanan belə həmayillər adətən uşaqların ilk xəstəliyi dövründə onların boynundan asılır və həyatlarının sonuna qədər çıxarılmır.[128]

Naxçıvanda müalicə məqsədi ilə istifadə edilən ardıc ağacı həmişə yaşıllığına görə müqəddəs sayılır. Onu qırmaq günah hesab edilir. Analoji olaraq altaylarda "artış" adlanan bu ağacın müalicəvi xüsusiyyətləri ilə bərabər, tüstüsündən evlərdən, insan və heyvanlardan bəd ruhları qovmaq üçün istifadə edilir.

Azərbaycan türklərində olduğu kimi, Sibir və Altay türkləri də hesab edirlər ki, bəd ruhlar, pis niyyətli adamlar tikanlı bitkilərdən qorxurlar.[129]

Dilək məqsədi ilə ağaca əsgi bağlamaq kərküklər (İraq türkmənləri) arasında da geniş yayılmışdır. Burada Sere // Suvare adlı ərazidə eyni adla tanınan ağaca böyük inam vardır. Bununla bağlı Yaşar Kalafat yazır: "Ağacın içində bir dəlik vardır. Ağacın içindən keçən və uşağı olmayanların uşaqları olacaqlarına inanırlar. Uşağı olanlar bu ağaca yaşıl bir çapıt bağlar və qurban kəsərlər."[130]

Orta Asiya türklərində bəzi çinar ağaclarına müqəddəs kimi baxırlar. Q. P.Vasilyeva qeyd edir ki, Kiz Bibinin yanındakı çinar müqəddəs hesab edilir. Xüsusən, qadınlar həmin çinarı ziyarət edərək sonsuzluqdan, müəyyən xəstəlikdən qurtarmaq üçün onun altında məclis təşkil edirlər. Eyni zamanda, çinarın budaqlarına çapıt bağlayırlar. İstək böyük olduqda məclis də böyük olur.

Müəllif bunun qadın Hami-Kiz Bibinin şərəfinə edildiyini söyləyir. [131]

Eyni inam Krım türklərində də vardır. Burada ulu çinarlara güclü inam olmuşdur.[132]

Naxçıvanda, xüsusən Ordubadda çinarlara müqəddəs ağac kimi yanaşılır. Heç təsadüfi deyil ki, Ordubadda bütün məsciddlərin və bir sıra ziyarətgahların həyətində çinarlar vardır. Hətta xalq arasında deyirlər ki, Ordubadda harada çinar var, ora müqəddəs yerdir. Ordubad şəhərində XX yüzilliyin 70-ci illərinə qədər məsciddin qabağında çox nəhəng bir çinar vardı. Söylənilirdi ki, bir zamanlar ustad Şeyx Nizami burada olmuş və

həmin çinarın altında oturmuşdur. (Çinarın gövdəsində XI əsrə aid olması ilə bağlı yazını mən görmüşdüm). Elə ki, məscid sökülüb yerində mədəniyyət evi tikildi, çinar qurudu.

Naxçıvanda çinarlarla bərabər, məscidlərin həyətindəki qara ağaclara ehtiramla yanaşılır. Ümumiyyətlə, Naxçıvanda qarağac ağacı ilə bağlı inam geniş yayılmışdır. Həmin inamdan bəhs edərək H.A.Quliyev və A.S.Bəxtiyarov yazırlar: "Naxçıvan şəhəri yaxınlığında son vaxtlara qədər bir-birindən müəyyən qədər aralı iki qarağac dururdu. Əhali onları əkiz adlandırırdı. Göstərirdilər ki, bu ağaclar güya yeraltı köklərlə bir-biri ilə əlaqədardır. Bunların birisinin yanında ( Yarımca kəndinə gedən yolda ) bir ədəd cavan qarağac bitmişdir ki, bunu da qoca qarağacın oğlu adlandırırlar. Sonralar bu ağacın ətrafı "Xuda divan" adlı böyük qəbirstanlığa çevrilmişdir. Xalq arasında məhşur olan rəvayətə əsasən kim bu yerdən qarağacın bir quru çöpünü belə apardısa, o, qızdırma xəstəliyinə tutulurmuş".[133]

Naxçıvanda duvaq günü gəlinə xeyir-dua verərkən, dilək diləyərkən bar verən ağacın kiçik budağı ilə başına vurulması ( toxundurulması ) da məhsuldarlıqla bağlıdır.

Yuxarıdakılardan belə nəticəyə gəlmək olar ki, "Əshabi-Kəhf"dəki ağac inamı genetik cəhədən ümumi türk xarakteri daşımaqla, çox qədim zamanlarda formalaşmışdır. Qədim türk soyu ağaca həyatverici, yaşadıcı qüvvə kimi baxmaqla onunla bağlı inancları günümüzə qədər qoruyub saxlamışdır.

# NƏTİCƏ

Aparılmış hərtərəfli araşdırmalardan aşağıdakı nəticəyə gəlmək olar:

1. "Əshabi-Kəhfə"lə bağlı rəvayət Naxçıvanda formalaşmaqla əvvəlcə türk xalqları, sonra digər xalqlar arasında yayılmışdır.
2. "Qurani Kərim"də adı çəkilən «Əshabi-Kəhf» bütün əlamətləri ilə Naxçıvandakı «Əshabi- Kəhfə» uyğun gəlir.
3. Mağara qədim ata ocağı, yaşayış məskəni kimi «Əshabi-Kəhf» hadisəsindən əvvəl mövcud olmaqla müqəddəs hesab olunmuşdur.
4. Buradakı inanclar heç bir dinə deyil, qədim türklərin arxaik inamlar pantieonuna, təbiət kulutuna aiddir.
5. «Əshabi- Kəhf» fiziki təmizlik, ruhu paklıq halında olan qulun Tanrısına yönəldiyi Ali məqamdır.
6. «Əshabi Kəhf» Azərbaycan türkünün qədim ata yurdu, Naxçıvanda min illər boyu tapındığı mağaranın daşlarına hopmuş mənəvi, tarixi, daş yaddaşı, kimlik vəsiqəsidir.

# ŞƏKİLLƏR



Şəkil 1."Əshabi-Kəhf"in girişinin ümumi görünüşü. Solda təbii keçid, sağda XX əsrin 80-ci illərində duzəldilmiş dəmir beton pilləkan.



Şəkil 2.Qədim dövrdə girişi asanlaşdırmaq məqsədi ilə qayada qazılmış ayaq izləri.
(Rəvayətə görə zülmdən qaçanların ayaq izləri).
Mağaraya gedən qədim yol.



Şəkil 3. Yeddi yatmışla bağlı məqam - "Yeddi kimsənə"



Şəkil 4.Dilək məqsədi ilə kiçik daş atılan məqam - Düldülün ayaq izləri.



Şəkil 5. Qədim tikil.(İbadətgah) qalıqlarının
ümumi görünüşü.



Şəkil 6. Divar qalıqlarından fraqment.



Şəkil 7. "Əshabi-Kəhf" də dilək məqsədi ilə
parça (əsgi,cındır) bağlanmış ağac.



Şəkil 8.Alməmməd (Əli Məhəmməd, Ali Məhəmməd)
pirindəki dilək ağacı.



Şəkil 9. Dilək ağacı. Qırğızıstan. Foto müəllifin Türk Dünyası jurnalındakı məqaləsindən götürülmüşdür.



Şəkil 10. Altay və Sibir Türklərində dilək ağacı-Dalama, Sarama. Foto Alekseev N.A. Rannıe formı reliqii Tyurkoyazıçnıx narodov Sibiri. Novosibirsk. 1980 kitabında səhifə 64-dən götürülmüşdür.



Şəkil 11. Dilək ağacı. Başqırdıstan.



Şəkil 12. Dilək ağacı. Dağıstan.



Şəkil 13. Müxtəlif niyyətlər üçün qayadakı deşikdən üç dəfə keçmək lazımdır. Niyyət məqsədilə üst-üstə qoyulmuş kiçik daşlar. (Solda)



Şəkil 14. "Damcıxana"ya gedən yol və "Damcıxana"nın görünüşü.



Şəkil 16. Yağış sularını toplamaq məqsədilə son illərdə düzəldilmiş hovuz.



Şəkil 15. Dilək məqsədi ilə daş yapışdırılan və nəzir qoyulan müqəddəs "Qara daş "



Şəkil 17. "Əshabi Kəhf"in daxilindən bir görünüş.



Şəkil 18. Zəvvarlar "Əshabi-Kəhf"də

## ƏDƏBİYYAT


1. Qədirzadə Q., Abbasova S. "Asafkəf" mağarasına inam, onun tarixi kökləri. "Sovet Naxçıvanı"qəzeti, 6.01.82. Yenə onların: rusca; "Sovetskya Naxiçevan".12.01.82.Qədirzadə Q. Pərəstişlər, inamlar və tarixi həqiqətlər."Sovet Naxçıvanı"qəz. , 29.03.1985. Hacı Kadir Kadirzade. Nahçıvanda mukaddesler, eren və evliyalarla ilgili kutsal yerlər. I Uluslararası Türk Dünyası eren və evliyaları Konqresi bildirileri. Ankara, 1998, s. 213-225. Qadir Qədirzadə. Naxçıvan tarixinin daş yaddaşı "Əshabi-Kəhf". "Naxçıvan"içtimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Naxçıvan, 2000, s 34-37. Hacı Qadir Qədirzadə, "Əshabi Kəhf": yeni tapıntılar, tarixi həqiqətlər "Şərq Qapısı". 18.07.2002.
2. "Kurani-Kerim".,1/16
3. "Kəhf" surəsi. 18/22
4. Yenə orada. 18/18
5. Yenə orada. 18/21.
6. İslam Ansiklopedisi. Türkiyə Diyanət Vakfı. İstanbul. 1991, cilt 3, "Əshabi-Kəhf"bölümü,s.465-467.
7. Elmallı M.Hamdi Yazır. Hak dini Kuran Dili. Çelik Şura. İstanbul, 5-ci cilt, s.163.
8. Yenə orada.,s, 169.
9. Yenə orada., s. 177.
10. İslam Ansiklopedisi., s. 166.
11. Elmallı M.Hamdi Yazır. Göst.əs. , s, 176-177.

12. Əbdürrəşid Əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmüdarın möcüzələri. Bakı, 1982, s¸ 113.
13. "Kurani-Kerim",18/22.
14. Farruk Sumer. "Eshabi-Kehf"/ yeddi uyuyanlar/. İstanbul, 1989.
15. Hacı Fəxrəddin Səfərli., Həmzə Cəfərov. Naxçıvan ziyarətgahları. 1998. Hacı Fəxrəddin Səfərli Duaların Allaha çatdığı yer – «Əshabi-Kəhf». Bakı. 2002.
16. Sədrəddin Bəlaqi. Quran qissələri / fars dilindən tərcümə edən Möhsün Nağısoylu /. Bakı, 1992,s. 191-195.
17. "Kurani-Kerim"., 18/9
18. Sədrəddin Bəlaqi. Göst.əs. s. 237-238.
19. Elmallı M.Hamdi Yazır, Göst.əs. "Kəhf'surəsi,ayə 9, s.167.
20. Kurani-Kərim ve Mealı. Mehmet Nuri Yılmaz. Ankara,1998.
21. "Kurani-Kerim" ve türkce anlamı ( meal). Ankara,1985.
22. "Kurani-Kerim" ve türkcə açıqlamalı mealı. Mədinei Münevverie, 1992.
23. Kurani-Kerim ve mealı. Abdulbakiı Gölpınarlı. Kumda basılmış, Nəsir Tarixi göstərilməyib.
24. "Qurani-Kərim" Azərbaycan türkcəsində açıqlama. Nəriman Qasımoğlunun qələmilə. Bakı, 1993.
25. Kurani-Kerim ve Mealı. Abdulbakı Gölpınarlı. "Kəhf" surəsinə yazılmış şərh. s. 28-29.
26. Elmallı M.Hamidi Yazır. Göst. Əs s. 168.
27. Kurani-Kerim ve türkce açıqlamalı meal. Mədineyi Münevveriye. "Kəhf'surəsinə yazılmış şərh.

28. Elmallı M.Hamdi Yazır. Göst.əs s. 175.
29. Hacı Fəxrəddin Səfərli., Duaların...s.25
30. Krımskiy A., Atay M. Sem spyaşix otrokov efesskix-. "Trudı po vostokovedeniyu izdavaemıe. Lazarevskim İnstitutom Vostoçnıx yazıkov". Vıp. 41, M., 1914, Kordlevskiy V.A. Skazaniya i leqendı. İzb. Soç. t. 1, Moskva, 1960.
31. Abureyxan Biruni. İzb. proizvedeniya. T.1, Taşkent, 1957.
32. Nikitin K. Narodnıe predaniya v Naxçievanskom uezde, Erivanskoy qubernii. (SMOMPK) Sbornik materialov dlya opisaniya mestnostey i plemeni Kafkaza. Tiflis, 1882, vıp, II, otdel II s, 107-120
33. Kalmıkov A. Xıva "Protokol zasedaniya Turkestanskoqo krujka lyubiteley arxeloqii". XII. Taşkent, 1908,s.71.
34. Snesarev Q. P. Zaqadka Daku-Yunusa (istoriya odnoqo poiska). Sovetiskaya Etnoqrafiya, Moskva. 1978, 5, s,148-159.
35. Yenə orada. s, 151.
36. Yenə orada.,s. 152.
37. Yenə orada.,s. 152.
38. Yenə orada,s. 153.
39. Yenə orada.,s. 153.
40. Yenə orada.,s. 152.
41. Ebülqazi Bahadır Han. Türklerin soykütügü (şəcərei Terakime). Tercüman 1001 temel eseri. s, 28.
42. Yenə orada., s. 32.

43. Prof.Dr. Fahrettin Kırzıoğlu. Yukar-Kür ve Çoruk Boylarında kıpçaklar. Ankara,1992, 1 bölüm,s.1-54.

44. Snesarev Q. P. göst.əs.,s. 153.

45. Yenə orada.,s.151.

46. "Kitabi-Dədə Qorqud". Bakı, 1988, s. 110.

47. Yenə orada.,s. 119.

48. Ebülqazi Bahadır Han. Göst.əs. s.14,

49. Kırzıoğlu M.Fahrettin. göst.əs. s.43, 44, 214-216.

50. Yenə orada. , s. 36.

51. "Bilqamıs" dastanı. Bakı, 1985. s. 98,

52. Yenə orada., s, 93-94.

53. "Kitabi-Dədə Qorqud", s. 116.

54. Akgündüz Ahmet. Arşiv Bilgələri işığında, Tarsus tarihi ve Eshabi-Kehf. İstanbul, 1993, Güler Yıldız, Ramazan Çakıroğlu. Mersin ili ve çevresində yer alan "Şeh ( Şeyh Mikdad )" və "Esabi-Kehf" ile ilgili derlemeler. I Uluslararası Türk Dünyası eren ve evliyaları konqresi bildirileri. Ankara, 1998, s. 577-579.

55. Prof. Dr. Hikimet Tanyu. Hacıbektaşda ( Suluçkaraböük ) bazi inanclar ve adetler. Genc erenler. Ankara, Avqustos, 1998, yıl 3, sayı 35, özel sayı, s. 30.

56. Dr. Yaşar Kalafat. Kuzey Azerbaycan-Doğu Anadolu ve Küzey İrakta eski türk Dini İzleri. Diri folklorik tabakalaşma. Ankara, 1998, s. 233, şəkil və şəkilaltı yazı.

57. Diyakonova V.P. Reliqioznıe kultı tuvintsev. Pamyatniki kulturı narodov Sibiri i Severa. Leninqrad, 1977 kitabında, s. 185.

58. Yaşar Kalafat. Göst.əs. s. 232.
59. "Bilqamıs" dastanı. , s. 36-37.
60. Yenə orada., s.35-39.
61. Yenə orada., s.9.
62. "Kitabi-Dədə Qorqud"., s.44.
63. Yenə orada., s.66.
64. Xlopina İ.D. İz mifoloqii i traditsionnıx reliqioznıx verovanii şortsev. Etnoqrafiya narodov Altaya i Zapadnoy Sibiri. Novosibirsk, 1978 kitabında, s.80-81.
65. Abdulkadir İnan. Eski Türk Dini Tarihi. İstanbul, 1976, s.31.
66. Alekseev N.A. Rannıe formı reliqii tyurkoyazıçnıx narodov Sibiri. Novosibirsk, 1980,s.64.
67. Potopov L.P. Drevnetyurkskie çertı poçitaniya Neba u Sayano-Altaiskix narodov. Etnoqrafiya narodov Altaya i Zapodnoy Sibiri. Novosibirsk, 1978, s.58-59.
68. Çançibaeva L.V. O sovremennıx reliqioznıx perejitkax u Altaytsev. Etnoqrafiya narodov Altaya...kitabında,s.92.
69. Rudenko S. İ. Başkirı. İstoriko-etnoqrafiçeskie oçerki. Moskva-Leninqrad,1955,s.317.
70. Devlet M. A. Kult bıka v Çentralnoy Azii j. "Priroda" oktyabr,1988, s.35-36.
71. Alekseev N.A. göst. əs., s.73.
72. Mirəli Seidov. Azərbaycan xalqının soyunu düşünərkən. Bakı,1989, s.268.

73. Abdulkadır İnan. Mekaleler və incelemeler. C. 11 Türk Tarihi Kurumu (TTK) yayınları, 1991, s. 35-36.
74. "Kitabi-Dədə Qorqud"., s.39.
75. İsmayıl Oranlı. II bölüm. XIII Dərsimizdə bazı gelenekler ve inanc motivleri. Hacı Bektaş Veli araşdırma dergisi. Güz. 2000, 15, s. 178.
76. Azərbaycan mifoloji mətinləri. Bakı,1988, s.76.
77. Yenə orada., s.82.
78. Yaşar Kalafat. Kuzey Azərbaycan....... s.71, 190-cı mənbə.
79. Alekseev N.A. göst. əs. s.44-45.
80. Abdullayev B. Yağış daşı barədə qeydlər. Azərbaycan folklorşunaslığı məsələləri. Bakı, 1989, s.15.
81. Xudayakov İ.A. Kratkoe opisanie Verxoyanskoqo okruqa. Leninqrad,1969, s.277.
82. Yaşar Kalafat. Güney Türkistandan Türkiyeye meseleler ve türk kultur kimliyi. İstanbul. 1995, s.27-28, mən. 34.
83. Naxçıvan sancağının müsəffəl dəftəri. (9Məhərrəm 1140 (27 avqust 1727). Ak. Ziya Bünyadov. t.e.n. Husaməddin Məmmədov Qaramanlı. Bakı 1997. s.122-123.
84. Alekseev N.A. göst. əs. s.43.
85. Quliyev H.A. , Bəxtiyarov A.S. Azərbaycanda qədim dini ayinlər və məişətdə onun qalıqları. Bakı, 1968, s. 33.
86. "Bilqamıs" dastanı., s. 32.
87. Malov S.P. Pamyatniki drevnetyurkskoy pismennosti. Moskva-Leninqrad,1951,s.37.

88. Yenə orada., s.68.

89. Mirəli Seyidov. göst. əs., s. 234-236.

90. Gokalp Z. Türk medeniyyeti tarihi. İstanbul,1976, s.52.

91. İnan A. Tarihde ve bu gün şamanizim. 2 baskı, Ankara, 1972, s.48.

92. Ögel B. Türklerde dövlet anlayışı. 13 yüzyıl sonlarına kader. Ankara,1982, s.16.

93. Esin E. Ötürken Yış ( Türk sanatında Ağaclı dağ hakkında notlar ). Atsız Armağanı. İstanbul, 1976, s. 147-149.

94. Potapov L.P. Yer-Sub v Orxanskix nadpisax. ST (Sovetskaya Tyurkoloqia), № 6, Baku, 1979, s. 71-78.

95. Karunovskaya L.E. Predstavleniya altaytsev o vselennoy SE, 1935, № 4-5, s. 162-163.

96. Anoxin A.V. Materialı po şamanstvu u altaytsev. Sb. MAF, t . IV, vıp. 2, Leninqrad, 1924, s. 1, 15, 17, 92.

97. Gömeç Saadettin. Gök Türk Tarihi. Ankara, 1997, s. 37.

98. Abramzon S.M. Kirqizı i ix etnoqrafiçeskie i istoriko-kulturnıe svyazi. Leninqrad, 1971, s. 295.

99. Alekseev N.A. göst. əs. s. 75.

100. Çançibaeva L.Q. göst. əs. s. 95.

101. Azərbaycan mifoloji mətinləri., s. 51-52.

102. Qədirzadə Qadir. Doğumla bağlı hami ruhlar, şər qüvvələr və genetik əlaqələr. Ana yurttan Ata yurda. Türk dünyası. Ankara, ocak, 1994, s. 71.

103. Azərbaycan mifoloji mətinləri., s. 58.

104. "Kitabi-Dədə Qorqud"., s.44.

105. Yenə orada., s. 38.

106. Mirəli Seyidov. göst. əs., s. 222.

107. "Koroğlu" dastanı., Bakı, 1975,s. 19-20.

108. Yenə orada., s. 20.

109. Yenə orada., s. 20.

110. Söylemezdin Minaveddin. Gümrülerin Nevruzda sulaşma gelenegi. Milli folklor "Türk Dünyası" folklor Dergisi. Ankara, 1998, BAHAR 37, s. 106.

111. Alekseev N.A. göst. əs., s. 55.

112. Azat Kaya. Balıkesirde yatırlar çevresinde oluşan inanc ve gelenekler. V Milletlerarası Türk Halk Kültürü Konqresi. Gelenek, Görenek İnanclar Seksiyon bildirileri. Ankara, 1997, s. 282-288.

113. Yaşar Kalafat. Kuzey Azerbaycan....,s. 76-77.

114. "Kitabi-Dədə Qorqud" ., s. 47-48.

115. Yenə orada., s.62.

116. Yenə orada, s111.

117. Yenə orada., s.98.

118. Koroğlu Xalıq. Oquzskiy qeroiçeskiy epos. Moskva, 1976, s. 44.; Şerbak A.M. Oquz-name. Muxabbet-name pamyatniki drevneuyqurskoy i starouzbekskoy pismennosti. Moskva, 1959, s. 28, 30.

119. Yenə göstərilən əsərlərdə. Həmin yerdə.

120. "Bilqamıs" dastanı., s. 55.

121. Naciye Yıldız. "Dede Korkut" hikayelerində ve "Manas" dastanında ağac. Milli folklor, "Türk Dünyası" folklor dergisi. Ankara, 1998, Bahar 37, s. 47-50.
122. Ülkütaşr Şakir. Türk ve islam geleneyinde ağac. Ankara, 1963, s. 18.
123. Mirəli Seyidov. Göst. əs. s. 270.
124. Alekseev. N.A. göst. əs. s. 60.
125. Orkun N.Namik. Eski türk yazıtları. Ankara, 1987, s .40.
126. Rudenko S.İ. göstər. əs., s. 317.
127. Azərbaycan mifoloji mətinləri., s. 141.
128. Vasilyeva Q.P. Turkmenı-Noxurlı. Sredneaziatskiy etnoqrafiçeskiy sbornik. Moskva, 1954, s. 211.
129. Alekseev N.A. göst. əs. s, 68.
130. Yaşar Kalafat. Küzey Azərbaycan ...., s. 76-77.
131. Vasiyeva Q.P. göst. əs., s. 211.
132. Yaşar Kalafat. Küzey Azərbaycan...., s. 76.
133. Quliyev Həsən, Bəxtiyarov Altay. Göst. əs., s. 49.

*Hacı Qadir Qədirzadə*

**ƏSHABİ KƏHF: MÜQƏDDƏSLİK, TARİXİLİK VƏ İNANCLARIN GENEZİSİ**

*Bakı «Elm» 2002*

*Çapa imzalanmışdır 25.11.2002. Formatı 60x84 1/16.*
*Çap vərəqi 7.0. Tirajı 250. Sifariş nömrəsi 98. Qiyməti müqavilə ilə*

«Elnur - P» - mətbəəsində çap olunub.